

## General Həzi Aslanovun şücaətləri Rusiyada necə şərəfləndirildi?

15



Səs
№ 022 (6463) 5 fevral 2022-ci il. Qiymәti 60 qəpik

# Cəsurluq, ərənlik məktəbi - Mübariz dastanı

*Azərbaycan torpağının hər qarışında bir qəhrəmanlıq dastanı yaşayır. Bu torpaq Vətən uğrunda canından keçən, şəhid olan oğulların qanı ilə suvarılıb. Ayaq basdığımız torpağın altında şəhid ulu babalarımız uyuduğundan bu məmləkət bizim üçün müqəddəsdir, əzizdir. Cadar-cadar olmuş torpaqdan gələn səslər vətən sevgisinin dastanını danışır bizlərə. Vətən, Azərbaycan deyib, ən ali sevgi uğrunda canlarını sipər edərək, düşmənlə üz-üzə dayanan oğullar şəhidlik zirvəsinə yüksəliblər.*



4

# "Azərbaycanın isbat edilmiş qaz ehtiyatı 2,6 trilyon kubmetrdir"

*Biz gələcəyə baxmalıyıq və mən əminəm ki, bugünkü iclasda iştirakçılar ənənəvi əməkdaşlıq sahələrini, gələcək planlarımızı müzakirə edəcək. Çünki hamımızın bildiyi kimi, əlavə qaz mənbəyinə tələbat artmaqdadır. Eyni zamanda, bərpa olunan enerji mənbələri ilə bağlı məsələlər də müzakirə olunacaq. Azərbaycan öz "yaşıl enerji" siyasətinə münasibətdə çox işlər görür. Dediyim kimi, yeni mənbələrdən qaz üçün tələbat artır.*



## Yeni Azərbaycan Partiyasının yerli təşkilatlarının sədrləri partiya aktivinə təqdim olunub



2

Fevralın 3-4-də Yeni Azərbaycan Partiyasının altmış dörd rayon və şəhər təşkilatının sədrləri onlayn formatda ərazi partiya təşkilatlarının sədrlərinə və yerli təşkilatların partiya aktivinə təqdim olunub.

## Məktəb və bağçalar bağlanır?- Təhsil Nazirliyi açıqlama yayıb



## Milli-mənəvi dəyərlər xalqın vizit kartıdır



Milli-mənəvi dəyərlərimizin qorunması, onların müəyyən bir çərçivədə təbliği əsas məsələlərdən biri kimi hər bir azərbaycanlını düşünməyə vadar edir. Zamanın müxtəlif illərində milli-mənəvi dəyərlərimiz meyar olaraq, xalqın milli...

## Prezident olmağa ümidli erməni müxalifəti...

*...Bu gün Ermənistanda savadlı təbəqəsinin təqribən 95 faizi Nikolun getməsini istəyir. Əslində bu 95 faizlik qüvvənin guya hansısa fiqurun hakimiyyətə gəlməsinin tərəfdarı kimi qəbul etmək də düzgün olmaz. Amma buna baxmayaraq, adıçəkilən qüvvələr çox açıq şəkildə mövcud hakimiyyəti rədd edirlər.*

14

## Ronaldonun formada qalmasının sirri açıldı!



*"Mançester Yunayted"in portuqaliyalı futbolçusu Kriştiano Ronaldonun əla formada qalmasının sirri məlum olub. Qol.az "The Sun"a istinadən xəbər verir ki, 36 yaşlı hücumçunun evində fərdi kriyoterapi palatası var. O, bunun sayəsində yüksək fiziki formasını saxlayır. Palatanın 60 min avro dəyərində olduğu bildirilib.*



## Üçüncü vaksini vurdurmayanlar avtobusa bilet ala biləcəklərmi?

12

*Bakı Beynəlxalq Avtovağzal Kompleksində (BBAK) bilet satışı bu günə qədər Nazirlər Kabinetinin müəyyən etdiyi qaydalara əsasən həyata...*

# "Azərbaycanın isbat edilmiş qaz ehtiyatı 2,6 trilyon kubmetrdir"

## Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin VIII toplantısında iştirak edib

***Fevralın 4-də Bakıda, "Gülüstan" sarayında Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısı keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda iştirak edib. XXI əsrin ən böyük layihələrindən biri olan Cənub Qaz Dəhlizi dörd seqmentdən - "Şahdəniz Mərhələ-II", Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP qaz boru kəmərlərindən ibarətdir. Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin toplantısına hər dəfə Azərbaycan ev sahibliyi edir. Bu isə ölkəmizin layihədə aparıcı rolunu təsdiqləyən mühüm amillərdən biridir.***



Ötən il toplantı pandemiya səbəbindən videokonfrans formatda keçirilsə də, bu dəfə müvafiq şərtlərə əməl etməklə Avropa İttifaqının komissarları, ABŞ, Böyük Britaniya, Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Albaniya, Xorvatiya, Macarıstan, Monteneqro, Rumıniya, Serbiya, Şimali Makedoniya, Moldova, Bosniya və Herseqovina, Ukrayna və Türkmənistanın yüksək səviyyəli nümayəndələrinin iştirakçıları Bakıda bir araya gəldilər.

Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə çıxış edib. Prezident İlham Əliyev öz çıxışında diqqətə çatdırıb ki, Məşvərət Şurasının hər bir iclasında müəyyən nailiyyətlər əldə edilib: "Hesab edirəm ki, milli səviyyədə koordinasiya bizə bu nəhəng layihəni - XXI əsrin ən böyük layihələrindən biri olan Cənub Qaz Dəhlizini icra etməyə kömək etdi. Onun dəyəri 33 milyard ABŞ dollarıdır. Eyni zamanda, əlbəttə ki, biz enerji şirkətlərinin, tikinti şirkətlərinin, investorların fəal iştirakı olmadan uğur qazana bilməzdik. Bu gün onlar buradadırlar. Əlbəttə, onların, eləcə də beynəlxalq maliyyə institutlarının töhfəsi çox dəyərli idi. Cənub Qaz Dəhlizi layihəsi həm də müasir tarixdə çox azsaylı layihələrdən biridir ki, onun icrasına bütün aparıcı beynəlxalq maliyyə institutları öz töhfəsini vermişdir - Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı. Beləliklə, aparıcı beynəlxalq maliyyə institutları bu layihənin icrası üçün kredit və maliyyə vəsaiti ayırdı. İndi biz bütün nöqteyi-nəzərlərdən mürəkkəb olan bu layihənin yüksək səmərəliliklə tamamlanmasına görə həqiqətən də fərəhlənə bilərik.

Əlbəttə, biz gələcəyə baxmalıyıq və mən əminəm ki, bugünkü iclasda iştirakçılar ənənəvi əməkdaşlıq sahələrini, gələcək planlarımızı müzakirə edəcək. Çünki hamımızın bildiyi kimi, əlavə qaz mənbəyinə tələbat artmaqdadır. Eyni zamanda, bərpa olunan enerji mənbələri ilə bağlı məsələlər də müzakirə olunacaq. Azərbaycan öz "yaşıl enerji" siyasətinə münasibətdə çox işlər görür. Dediyim kimi, yeni mənbələrdən qaz üçün tələbat artır. Cənub Qaz Dəhlizi layihəsinin tamamlanmasından sonra Azərbaycan beynəlxalq bazarlara, o cümlədən Avropa bazarlarına ixracı artıra bilib. Keçən il Azərbaycan 19 milyard kubmetr təbii qaz ixrac edib - Türkiyəyə 8,5 milyard, İtaliyaya demək olar ki, 7 milyard kubmetr. Yerdə qalan həcm komandanın başqa üzv ölkələrinə - Gürcüstana, Yunanıstana və Bolqarıstana ixrac olunub. Əminəm ki, komandamızın üzvü olan Albaniyada öz qazpaylayıcı şəbəkəsini tamamlayan kimi Azərbaycan qazını əldə edəcək. Həmçinin o faktı vurğulaya bilərik ki, bugünkü iclasda keçən illə müqayisədə daha çox sayda ölkə və şirkətlər iştirak edir. Yeni iştirakçılarımız var və bu da onu göstərir ki, yeni bazarlarda Azərbaycan qazına ehtiyac var. Biz hazırıq, çünki Azərbaycan həmişə beynəlxalq bazarlara enerji resurslarının etibarlı təchizatçısı olmuşdur."

Dövlət başçısı qeyd edib ki, biz elektrik enerjisi infrastrukturuna böyük həcmdə investisiya yatırmışıq.

## *İlham Əliyev: "Bizim "yaşıl enerji" strategiyamız planlamanın yekun mərhələsindədir"*



**Ardı Səh. 3**

# "Azərbaycanın isbat edilmiş qaz ehtiyatı 2,6 trilyon kubmetrdir"




Əvvəli-Səh-2

Davos Dünya İqtisadi Forumunun qiymətləndirməsinə əsasən, enerjiyə əlçatanlıq reytinqində ölkəmiz dünyada ikinci yerdədir:

"Azərbaycanda elektrik enerjisi xətlərinin tamamilə müasirləşdirildiyini, yeni elektrik stansiyalarının tikildiyini diqqətə çatdıran dövlətimizin başçısı buna misal olaraq, Bakının Qobu rayonunda təxminən 400 meqavat gücündə yeni elektrik stansiyasının tezliklə açılacağını qeyd edib. Həmçinin bildirib ki, ötən ay Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti tərəfindən maliyyələşdirilən 240 meqavat gücündə külək elektrik stansiyasının təməli qoyulub."

"Bizim elektrik enerjimizə regional bazarda da ehtiyac var, bəlkə də, biz daha uzağa, Avropaya

## "Cənub Qaz Dəhlizi layihəsi başa çatıb, bizim işimiz isə davam edir"

qədər gedə bilərik. Çünki bu gün biz dörd qonşu ölkəyə - Türkiyə, Rusiya, Gürcüstan və İrana elektrik enerjisi ixrac edirik. Həcm artır. Bizim Azərbaycanda bərpaolunan enerji mənbəyimiz nə qədər çox olsa, biz ixrac üçün daha çox qaza qənaət edəcəyik. Məsələn, mənim indicə qeyd etdiyim elektrik stansiyası - külək elektrik stansiyası ilə biz 200 və ya 300 milyon kubmetr qaza qənaət edəcəyik. Bu, yaxşı göstəricidir və istehlakı böyük olmayan ölkələr üçün ciddi dəyişiklik ola bilər. Beləliklə, bizim "yaşıl enerji" strategiyamız hazırda təkcə qiymətləndirilmə deyil, həm də planlamanın yekun mərhələsindədir".

Əhalinin sayının artması ilə əlaqədar bizim daxili tələbatımız da artır. Azərbaycanın demoqrafik vəziyyəti çox müsbətdir. Eyni zamanda, sənaye artır. Ötən il bizdə qeyri-enerji əsaslı sənayedə rekord artım göstəricisi qeydə alınıb. Sənayemizin bu sektoru demək olar ki, 20 faiz artıb.

Azərbaycanın öz daxili tələbatını ödəmək üçün daha çox qaza ehtiyacı olduğunu qeyd edən dövlətimizin başçısı deyib: "2020-ci ildə Vətən müharibəsi ərzində işğaldan azad edilən ərazilərimizi qazlaşdırmaq üçün çox tezliklə bizim əlavə həcmdə qaza ehtiyacımız olacaq. Bu, tamamilə dağıdılmış böyük bir ərazidir. Bütün infrastruktur dağıdılıb. Bu ərazi 10 min kvadratkilometrdən çoxdur. Siz bizim qarşımızda necə çağırış olduğunu təsəvvürünüzə gətirə bilərsiniz. Biz artıq bu ildən etibarən keçmiş qaçqınlarımızı geri qaytarmağı planlaşdırırıq. Ona görə də, bizim öz istehlakımız üçün əlavə qaza ehtiyacımız olacaq".

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan dünyanın xam neft, təbii qaz, neft-kimya məhsulları, neft məhsulları və elektrik enerjisi ixrac edən az sayda ölkələrindən biridir.

Dövlətimizin başçısı daha sonra qeyd edib ki, yaxşı nəticə verəcəyinə ümid bəslədiyimiz digər böyük bir yataq "Babək"dir. Onun təxmin olunan qaz ehtiyatı 400 milyard kubmetrdir. "Ümid" yatağının qaz ehtiyatı ən azından 200 milyard kubmetrdir. "Bizim çoxdan istismarda olan neft-qaz yataqları-

## "Azad edilmiş ərazilərimizi qazlaşdırmaq üçün əlavə həcmdə qaza ehtiyacımız olacaq"

mızdan biri - "Azəri-Çıraq-Günəşli"dən böyük gözləntilərimiz var. Onun tezliklə istismara veriləcəyinə ümid etdiyim dərin qaz hissəsində yüz milyardlarla kubmetr qaz olacaq və düşünürəm ki, qısa zamanda hasil edilə biləcək. Beləliklə, bu, bizim bugünkü potensialımızdır", - deyə Dövlətimizin başçısı diqqətə çatdırıb.

Prezident deyib ki, Azərbaycanın 4 ölkə, 4 qonşu ilə birləşdirən şaxələndirilmiş qaz nəqli şəbəkəsinə malik olması, əsas ixrac marşrutu - Cənub Qaz Dəhlizinin tamamlanması gələcək planların həyata keçirilməsinə imkan yaradacaq: "Lakin əlbəttə ki, biz bu komanda işini davam etdirməliyik. Cənub Qaz Dəhlizi layihəsi başa çatıb, bizim işimiz isə davam edir. Əminəm ki, biz yeni nəticələr əldə edəcəyik".

Dövlətimizin başçısı qeyd edib ki, "Şahdəniz" bu vaxtadək Cənub Qaz Dəhlizinə töhfə verən yeganə yataqdır. Lakin digər layihələr üzərində də iş gedir.

"Ümid edirik ki, ən böyük qaz kondensatı yataqlarından biri olan "Abşeron"da tezliklə hasilata başlanılacaq. Ola bilsin, bir ildən də az müddətdə. İş mərhələlərlə aparılacaq. "Abşeron"da birinci mərhələdə 1,5 milyard kubmetr qaz hasil olunacaq. Bu, böyük bir həcm deyil. Lakin düşünürəm ki, bəzi ölkələr üçün əhəmiyyətli göstəricidir. Bu, bizim də artan tələbatımızı qarşılaya bilər və həmçinin ixrac imkanlarını da təmin edə bilər. Azərbaycanın isbat edilmiş qaz ehtiyatı 2,6 trilyon kubmetrdir. Ən böyük yataq olan "Şahdəniz"də bir trilyon kubmetr qaz ehtiyatı var. Əminəm ki, daha çox olacaq.

Həmçinin demək istərdim ki, ilk növbədə, əhalinin sayının artması ilə əlaqədar bizim daxili tələbatımız da artır. Azərbaycanın demoqrafik vəziyyəti çox müsbətdir. Eyni zamanda, sənaye artır. Ötən il bizdə qeyri-enerji əsaslı sənayedə rekord artım göstəricisi qeydə alınıb. Sənayemizin bu sektoru demək olar ki, 20 faiz artıb. Əlbəttə ki, bizim öz tələbatımızı qarşılamaq üçün daha çox qaza ehtiyacımız var. Həmçinin ümidvaram ki, 2020-ci ildə Vətən müharibəsi ərzində işğaldan azad edilən ərazilərimizi qazlaşdırmaq üçün çox tezliklə bizim əlavə həcmdə qaza ehtiyacımız olacaq. Bu, tamamilə dağıdılmış böyük bir ərazidir. Bütün infrastruktur dağıdılıb. Bu ərazi 10 min kvadratkilometrdən çoxdur. Siz bizim qarşımızda necə çağırış olduğunu təsəvvürünüzə gətirə bilərsiniz. Biz artıq bu ildən etibarən keçmiş qaçqınlarımızı geri qaytarmağı planlaşdırırıq. Ona görə də, bizim öz istehlakımız üçün əlavə qaza ehtiyacımız olacaq. Burada biz bərpaolunan enerji mənbələri ilə bağlı diqqətimizi cəmləşdirdiyimiz çox mühüm bir məqama gəlirik. Yeri gəlmişkən, Azərbaycan dünyanın xam neft, təbii qaz, neftkimya məhsulları, neft məhsulları və elektrik enerjisi ixrac edən az sayda ölkələrindən biridir. Azərbaycanın elektrik enerjisi potensialı əsasən daxili istehlaka hesablanıb", - deyə Azərbaycan Prezidenti əlavə edib.

Daha sonra Azərbaycanın energetika naziri Pərviz Şahbazov, Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı xanım Kadri Simson çıxış edərək fikirlərini bildiriblər. Toplantı işini panel sessiyalarla davam etdirib.

# İLHAM ƏLİYEV: ”Bu günə qədər 10 mindən çox şəhid ailəsi və müharibə əlili evlərlə, mənzillərlə təmin edilib”

***“Şəhid ailələri, müharibə əlilləri üçün də genişmiqyaslı proqram icra edilir. Mən Azərbaycanı heç bir ölkə ilə müqayisə etmək istəmirəm, amma o da həqiqətdir ki, şəxsən mən bilmirəm hansı ölkələrdə buna oxşar proqram icra edilir". Bu fikirləri Prezident İlham Əliyev fevralın 2-də Gənclər Forumunda gənclərin suallarını cavablandırarkən bildirib. "Bu günə qədər 10 mindən çox şəhid ailəsi və müharibə əlili evlərlə, mənzillərlə təmin edilib", - deyən dövlət başçısı bildirib ki, mənzil proqramına Vətən müharibəsi qəhrəmanları da daxil edilib. Prezident İlham Əliyev deyib ki, Təkcə müharibə əlilləri yox, bütövlükdə əlilliyi olan şəxslər dövlət tərəfindən daha böyük qayğı ilə əhatə olunmalıdır.***



Azərbaycanın modern dövlət quruculuğunda sosial siyasətin önəmli istiqamətlərindən biri də şəhid ailələrinin, Qarabağ müharibəsi veteranları və əlillərinin sosial müdafiəsidir. Ümumilikdə, mütərəqqi sosial siyasət həyata keçirən Azərbaycanda vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə xüsusi diqqət yetirilir. Azərbaycanda Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə yüksək dövlət qayğısı davamlı xarakter daşıyır və bu siyasətin əsası xalqımızın Ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndər Heydər Əliyev tərəfindən 1994-cü il avqust ayının 26-da imzalanan ”Azərbaycan Respublikasını erməni təcavüzündən müdafiə edərkən əlil olmuş şəxslərin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında” Fərman müharibə əlillərinin sosial ehtiyaclarının ödənməsi istiqamətində atılan ilk addım olub. Həmin Fərmanın imzalanması ilə müharibə iştirakçılarının, əlillərinin sosial müdafiəsini gücləndirmək məqsədilə tədbirlərə start verilib.

Məhz bu gün də bu istiqamətdə həyata keçirilən tədbirlər sistemli və ardıcıl xarakter daşıyır. Belə ki, dövlətimizin başçısının bu istiqamətdə müvafiq Fərman və sərəncamlar imzalaması əlil və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsinə müstəsna töhfələr verir. Xüsusilə, bu gün müstəqil Azərbaycan, dövlət başçısı İlham Əliyev İkinci Vətən Müharibəsi nəticəsində qaçqın və məcburi köçkünlərə, müharibədə şəhid və fiziki sağlamlığını itirən şəxslərin ailələrinə xüsusi diqqət ayırır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, 44 günlük Vətən Müharibəsinin əldə etdiyi bu böyük Qələbənin əsas qəhrəmanı Azərbaycan əsgəri və zabitidir. Müharibə zəfərlə başa çatandan sonra Ali Baş Komandanımızın, ilk növbədə, yaralı hərbçilərimizlə görüşməsi də onlara yüksək hörmət və ehtiramın, qayğının nümunəsidir.



Prezident, Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müvafiq göstərişlərinə əsasən, dövlət qurumları bu kateqoriyadan olan insanların problemləri ilə yaxından maraqlanır, onların problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir. Prezident İlham Əliyev ölkənin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında cari ilin yanvar ayının 25-də imzalanmış ”Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında” Sərəncam da bu istiqamətdə həyata keçirilən tədbirlərin davamlı olduğunun bariz nümunəsidir. Bu Sərəncam da digər sərəncamlar və fərmanlar kimi Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların və şəhid ailələrinin sosial müdafiəsində həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biridir. Bu Sərəncam çoxsaylı ailələrə mənzil ehtiyaclarını qısa zaman kəsiyində ödəməklə onlara böyük sevinc bəxş edəcək, bununla da şəhid ailələrinin sosial müdafiəsi daha da yaxşılaşacaq.

Ümumiyyətlə, Azərbaycanda şəhid ailələrinin, müharibə əlillərinin və veteranlarının sosial müdafiəsi Prezident İlham Əliyevin həyata keçirdiyi daxili siyasət kursunun prioritet istiqamətidir. Bu kateqoriyadan olan insanlara daim qayğı və diqqət göstərilir. Xüsusilə, 44 günlük Vətən müharibəsində şəhid olan qəhrəmanlarımızın ailələrinin, yaralanan, zərər çəkən mülki vətəndaşların da sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı silsilə fərman və sərəncamlar imzalanıb.

Müvafiq qanunvericiliyə edilən dəyişiklik nəticəsində müharibə dövründə həlak olan mülki şəxslərə də şəhid statusu verilib. Eləcə də, dövlət başçısının yanvarın 1-də imzaladığı sərəncama əsasən bir sıra kateqoriyadan olan insanların, şəhid ailələrinin, Milli Qəhrəmanların, I, II, III qrup Qarabağ müharibəsi əlillərinin, İkinci Dünya müharibəsi veteranlarının təqaüdləri əhəmiyyətli dərəcədə artırılıb. Həmçinin yeni təqaüd növü - ”Vətən mühərbəsi qəhrəmanı” təqaüdü təsis edilib. Bütün bunların davamı olaraq Prezident İlham Əliyevin 25 yanvar 2021-ci il tarixli ”Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında” Sərəncamı həmin kateqoriyadan olan əhali qruplarına dövlət başçısının xüsusi qayğısının növbəti təzahürüdür.

### “BU SAHƏDƏ AZƏRBAYCAN DÜNYA MİQYASINDA ÖZ MODELİNİ ORTAYA QOYUR”

Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsi zamanı şəhid ailələrinə, Qarabağ müharibəsinin iştirakçıları və qazilərə göstərilən dövlət qayğısından danışaraq bildirib ki, bu sahədə Azərbaycan dünya miqyasında öz modelini ortaya qoyur və bu kateqoriyadan olan insanlar üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən davamlı olaraq müasir tələblərə cavab verən fərdi və çoxmənzilli yaşayış binalarının tikilib istifadəyə verilməsi bunun əyani təsdiqidir: ”Mən bütövlükdə deyə bilərəm ki, bu sahədə Azərbaycan dünya miqyasında öz modelini ortaya qoyur. Çünki dünyada bir çox ölkələr müharibə şəraitində olublar. O ölkələrin təcrübəsini biz bilirik, öyrənirik. Görürük ki, Azərbaycanda şəhid ailələrinə, qazilərə və müharibədən əziyyət çəkmiş insanlara göstərilən diqqət doğrudan da nümunəvi sayıla bilər. Çünki elə təşəbbüslər irəli sürülür ki, başqa ölkələrdə biz buna rast gəlmirik. Misal üçün, şəhid ailələrinə, müharibə əlillərinə dövlət tərəfindən mənzillərin verilməsi. Bu, bizim təşəbbüsümüz idi. Bu günə qədər bu kateqoriyadan olan 10 minə yaxın insan mənzillərlə təmin edilib. Minik avtomobilləri verilir, 7400 avtomobil verilib. Növbədə duranlar, yeni Birinci Qarabağ müharibəsinin iştirakçıları və qaziləri artıq yaxın gələcəkdə tam təmin ediləcəklər. Təkcə keçən il Birinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və qaziləri evlərlə təmin edilib. Onlardan 850 nəfəri mənzillərlə təmin edilib, İkinci Qarabağ müharibəsinin iştirakçıları, yeni qaziləri və şəhid ailələri, onlara da 750 mənzil verilib, bu proses davam etdirilir. Hesab edirəm ki, Birinci Qarabağ müharibəsində iştirak etmiş bu kateqoriyadan olan insanlara bəlkə də iki il ərzində, tam, yeni növbədə duranlara mənzillər veriləcək. İkinci Qarabağ müharibəsində, həmçinin yaxın bir neçə il ərzində bu şərait yaradılacaq”.

### ”BİZ BUNU HEÇ YERDƏ GÖRMƏMİŞİK, BU TƏCRÜBƏNİ HEÇ YERDƏN GƏTİRMƏMİŞİK”

Prezident müsahibə zamanı bu həssas kateqoriyadan olan insanlara göstərilən qayğının sırf Azərbaycanda aparıldığını bildirib: ”Yəni, bir daha demək istəyirəm ki, bu, sırf bizim təşəbbüsümüzdür. Biz bunu heç yerdə görməmişik, bu təcrübəni heç yerdən gətirməmişik. Sadəcə olaraq, bu həssas kateqoriyadan olan insanlara müəyyən dərəcədə təsəlli vermək və onların dərdinə şərik olmaq üçün biz bu addımı atırıq. Əlbəttə, bu, böyük vəsait tələb edir. İndi hər kəs bilir ki, bir mənzilin qiyməti neçəyə başa gəlir və bu, büdcə üçün böyük bir yükdür. Amma biz bu yükün altına girmişik və sona qədər bu işi aparacağıq, bu kateqoriyadan olan ta axırıncı insan mənzillə, avtomobillə təmin olunana qədər bu məsələ ilə məşğul olacağıq”.

Bütün bunlarla yanaşı, qeyd edilməli məqamlardan biri Prezident İlham Əliyevin 25 yanvar 2021-ci il tarixli Sərəncamıdır. Sərəncama uyğun olaraq 2021-2025-ci illərdə şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 11 min mənzil və fərdi evin verilməsi nəzərdə tutulub. O cümlədən bu il ərzində 3 minədək mənzil və fərdi ev bu kateqoriyadan olan vətəndaşlara təqdim ediləcək. Onlardan artıq 470-i verilib. Ümumilikdə bu günə qədər 10 mindən çox şəhid ailəsi və müharibə əlili evlərlə, mənzillərlə təmin edilib. Bir sözlə, yuxarıda qeyd edilənlər bir daha onu deməyə əsas verir ki, Azərbaycan Prezidenti və Birinci vitse-prezident Mehriban xanım Əliyeva qayğıya ehtiyacı olan insanların, xüsusilə. ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş insanların ailələrinin, əlillərin sosial məsələlərinin həllini xüsusi diqqət mərkəzində saxlayır və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir.

**RƏFİQƏ KAMALQIZI**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısında iştirak edən Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.*

# "Azərbaycan alternativ və bərpaolunan enerji konsepsiyasını inkişaf etdirir"



*Prezident İlham Əliyev Avropa İttifaqının energetika məsələləri üzrə komissarının başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısında iştirakına və dəyərli çıxışına görə Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Kadri Simsona təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev Avropa İttifaqı ilə enerji sahəsində əməkdaşlığa dair birgə bəyanatın imzalanmasından 10 ildən artıq müddətin keçdiyini qeyd etdi. Avropa İttifaqı ilə Azərbaycan arasında bu sahədə həyata keçirilən əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu və bunun Cənub Qaz Dəhlizi çərçivəsində də davam etdirildiyini bildirdi. Bu layihənin birgə əməkdaşlıq və əlaqələndirmə şəraitində uğurla başa çatdırıldığını dedi.

Dövlətimizin başçısı Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində aparılan müzakirələrin ikitərəfli və çoxtərəfli əsasda enerji sahəsində əməkdaşlıq üzrə yeni ideya və planların müzakirəsi baxımından əhəmiyyətini vurğuladı.

Bu toplantının Cənub Qaz Dəhlizi xətti ilə qazın Avropa İttifaqına çatdırılmasından bir il sonrakı dövrə, həm Avropa İttifaqı, həm də Azərbaycanın yeni "yaşıl enerji" strategiyasına keçidi mərhələsinə və hazırda dünya qaz bazarında baş verən qiymət dəyişmələri və digər tendensiyalar şəraitinə təsadüf etdiyini bildirən Prezident İlham Əliyev bu baxımdan tədbirdə aparılan müzakirələrin önəmini qeyd etdi.

Dövlətimizin başçısı Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş üzrə danışıqların uğurla aparıldığını bildirdi və bu danışıqların da tezliklə başa çatdırılacağına ümidvar olduğunu ifadə etdi.

Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Kadri Simson Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısının keçirilməsinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Cənub Qaz Dəhlizinin Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin olunmasında rolunu qeyd edən Kadri Simson Avropa İttifaqının enerji təminatının şaxələndirilməsinə böyük əhəmiyyət verdiyini dedi və bu xüsusda Cənub Qaz Dəhlizinin önəmini vurğuladı.

Görüşdə Avropa İttifaqı ilə Azərbaycan arasında enerji, o cümlədən "yaşıl enerji" sahəsində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı. Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan alternativ və bərpaolunan enerji konsepsiyasını inkişaf etdirir və ölkəmizdə bu sahə xarici sərmayədarları cəlb edir.

# Prezident İlham Əliyevin, Fransa Prezidentinin, Avropa İttifaqı Şurasının Prezidentinin və Ermənistanın baş nazirinin iştirakı ilə videoformatda görüş keçirilib

***Fevralın 4-də Fransa Respublikasının Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Fransanın Avropa İttifaqına sədrliyi qismində Prezident Emmanuel Makronun, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda görüş keçirilib.***






AZƏRTAC xəbər verir ki, görüş zamanı əvvəlcə Prezident Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə 2021-ci il dekabrın 14-də Brüsseldə keçirilmiş birgə görüşün əhəmiyyəti vurğulandı.

Sonra Brüssel sülh gündəliyinin davamı olaraq Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasına dair ətraflı müzakirələr keçirildi. Bu xüsusda, tədbirin əvvəlcədən müəyyən edilmiş gündəliyinə uyğun olaraq, iki ölkə arasında münasibətlərin müxtəlif aspektləri, o cümlədən humanitar məsələlər, etimad quruculuğu, Azərbaycanın üzləşdiyi mina problemi, kommunikasiyaların açılması, sərhədlərin delimitasiyası və demarkasiyası, sülh sazişi üzrə danışıqların başlanması kimi məsələlərə dair fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev müzakirə olunan məsələlər barədə Azərbaycanın mövqeyini bir daha vurğuladı.

Müzakirələr zamanı Prezident İlham Əliyev Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş şəxslərin taleyinin, kütləvi məzarlıqların yerinin müəyyənləşdirilməsi, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi sahəsində Azərbaycana beynəlxalq dəstəyin artırılması, dəmir yolu və avtomobil yolu ilə nəqliyyat dəhlizinin açılması məsələsinə xüsusi olaraq diqqət verdi.

Dövlətimizin başçısı Birinci Qarabağ müharibəsi zamanı 71-i uşaq, 267-si qadın və 326-sı ahıl olmaqla, ümumilikdə 3890 Azərbaycan vətəndaşının itkin düşməsini qabartdı.

Prezident İlham Əliyev qeyd etdi ki, Vətən müharibəsinin başa çatmasından bəri mina partlayışı nəticəsində 36 nəfər Azərbaycan vətəndaşı həlak olub, 165 nəfər isə yaralanıb. Görüşdə, həmçinin UNESCO-nun Azərbaycana və Ermənistana missiyası məsələsi də müzakirə olundu və missiyanın hər iki ölkəyə göndərilməsinə dair razılıq ifadə edildi.

# Yeni Azərbaycan Partiyasının yerli təşkilatlarının sədrləri partiya aktivinə təqdim olunub

Fevralın 3-4-də Yeni Azərbaycan Partiyasının altmış dörd rayon və şəhər təşkilatının sədrləri onlayn formatda ərazi partiya təşkilatlarının sədrlərinə və yerli təşkilatların partiya aktivinə təqdim olunub.

Qeyd edilib ki, ölkəmizin və regionumuzun ən böyük partiyası olan Yeni Azərbaycan Partiyası avanqard siyasi qüvvə olaraq ölkədə aparılan bütün mütərəqqi və məqsədyönlü işlərin önündə getmiş, Azərbaycan siyasi sisteminə hər zaman yeniliklər gətirmiş və bu sahədə bir çox uğurlara imza atmışdır. Yeni Azərbaycan Partiyasının VII Qurultayında ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin bilavasitə tapşırıq və tövsiyələri əsasında hazırlanaraq qəbul olunmuş Nizamnamə müasir dövrün reallıqlarına uyğun olan yeni çağırışların, vəzifələrin daha da effektiv şəkildə həyata keçirilməsinə şərait yaradır. Qurultayda qəbul olunmuş Nizamnamə Yeni Azərbaycan Partiyası və onun yerli təşkilatlarının işinin daha da gücləndirilməsi, səmərəliliyinin artırılmasını özündə ehtiva edir.

Vurğulanıb ki, yeni Nizamnamənin tələblərinə uyğun olaraq YAP İdarə Heyətinin 28 yanvar 2022-ci il tarixli 1 nömrəli qərarına əsasən partiyanın yerli təşkilatlarına sədrlər təyin olunub.

Bildirilib ki, qazanılan uğurların bundan sonra da davamlı olması, rayon təşkilatının daha da gücləndirilməsi, inkişaf etdirilməsi yeni təyin olunmuş sədrlərin və ümumilikdə rayon təşkilatının fəallarının diqqət mərkəzində olmalıdır.

Öz növbəsində yerli təşkilatların yeni təyin olunmuş sədrləri çıxış edərək göstərilən etimada görə partiya rəhbərliyinə təşəkkürlərini bildirib və bu etimadı layiqincə doğruldacaqlarını vurğulayıblar. Təqdimatlar zamanı, həmçinin yerli təşkilatların qarşısında dayanan vəzifələrlə bağlı müvafiq tövsiyə və tapşırıqlar verilib.

*Azərbaycan torpağının hər qarışında bir qəhrəmanlıq dastanı yaşayır. Bu torpaq Vətən uğrunda canından keçən, şəhid olan oğulların qanı ilə suvarılıb. Ayaq basdığımız torpağın altında şəhid ulu babalarımız uyuduğundan bu məmləkət bizim üçün müqəddəsdir, əzizdir. Cadar-cadar olmuş torpaqdan gələn səslər vətən sevgisinin dastanını danışır bizlərə. Vətən, Azərbaycan deyib, ən ali sevgi uğrunda canlarını sipər edərək, düşmənlə üz-üzə dayanan oğullar şəhidlik zirvəsinə yüksəliblər. Belə oğullar sırasında bu gün iftixar hissi ilə adını xatırladığımız Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun da adı var. Azərbaycan qəhrəmanlıq tarixinin yeni səhifəsini yazan və müasir həyatımızın Koroğlusuna, Babəkinə çevrilən milli qəhrəman Mübariz İbrahimovun qısa bir ömür tarixində şücaəti, mərdliyi, torpağa olan bağlılığı, ən əsası isə yaşadığı məmləkətə məhəbbəti onu bütövlükdə xalqına tanıtdı.*

# Cəsurluq, ərənlik məktəbi - Mübariz dastanı



Məhəbbəti və şöhrəti şəhidlik zirvəsinə yüksəlməsi ilə qazandı elimizin mərd oğlu. Atası Ağakərimin, anası Şamama xanımın ocağında aldığı tərbiyə, vətənpərvərlik duyğuları Mübarizin qəlbində elə bir hiss oyatmışdı ki, bunun qarşısını heç vəchlə almaq mümkün olmazdı. Silaha sarılıb hayqıraraq, düşmən üzərinə hücum çəkib hədəfə aldığı ermənileri məhv etməklə həyatda özünü təsdiq edib varlığının nəyə xidmət etdiyini göstərməsi Mübarizin kimliyinin təsdiqi idi. Bu adın qarşısında müasir həyatımızda hər bir şəxs baş əyir və şəhidliyin zirvəsində olan Mübarizi böyük məhəbbətlə xatırlayırlar. Qəhrəmanlıq qanadlarında 10 milyon qəlbdə Mübariz adı yazan qəhrəmanın ruhu vətənin səmalarındadır. Mübariz ölümü ilə bir örnək oldu. Vətən naminə şəhidliyə yüksəldi. Qəsbkar düşmənə gözdağı oldu. Nərəni andıran səsi, qorxaq erməninin canına lərzə saldı. Ermənının həmin anda aldığı görkəmi, miskinliyi Mübariz qəhrəmanlığını daha da yüksəkliyə qaldırır. Mübariz məkanı bir qeyrət yeridir. Bəli, Əliabad ziyarət yeridir - ərənlik, igidlik məktəbidir bu məkan. Hər kəsin arzusudur burada olmaq: Mübarizin hansı və necə mühitdə böyüməsini gözlə görmək arzusu.

**Köksünə vətənin bayrağın taxıb,**
**Göylər tək gurlayıb, şimşək tək çaxıb.**
**Ölümün gözünə mərdanə baxıb,**
**Behişt dərgahına enən Mübariz!**

Azərbaycan tarixinin şanlı səhifəsinə - şəhidlik zirvəsinə yüksəlməsi ilə adını yazdı. Həmin tarix hər bir azərbaycanlının fəxarət duyduğu bir günə çevrildi. Neçə əsrlik qəhrəmanlıq tariximizə yeni səhifə açıldı. Daşlaşmış yaddaşlara vətən, torpaq uğrunda yaşamağa və ölməyə hazır olmağı bacaran vətən övladı Mübarizin də adı həkk olundu. Əbədiləşdi Mübariz. Onu bu ruhda yetişdirən, məhz Azərbaycan torpağına ayaq basmış və Azərbacan torpaqlarının 20 faizini işğal etmiş erməni terrorçularından intiqam almaq və qisas hissi idi. Qorxmadan erməniyə Azərbaycan oğullarının kimliyini isbat etmək üçün mətin addım atdı. Erməni təcavüzkarlarının torpağımızı işğal etməsinə dözmədi, günahsız insanların harayı qulaqlarında səsləndi, qarda donmuş anabacıların, qocalarin ah-naləsi onun rahatlığına son qoydu və Mübariz xalqın mübariz oğluna çevrildi. Mübariz ona qoyulan adı doğrultdu.

## "VƏTƏNİN DAR GÜNÜNDƏ ARTIQ ÜRƏYİM DÖZMÜR"

Elə Qarabağda başlanan savaşın tarixi onun doğulduğu ilə təsadüf edir. Məlumdur ki, Azərbaycana qarşı olan erməni iddiaları 1988-ci ildən baş qaldırır və dünyaya həmin ildə göz açan Mübariz də erməni vəhşiliklərini, onların törətdikləri əməlləri eşidə-eşidə, görə-görə böyüyür. Düşmənə qəzəbi də elə ağlı kəsəndən sonra olur. Mübariz Ağakərim oğlu İbrahimov 1988-ci il fevralın 7-də Biləsuvar rayonunun Əliabad kəndində anadan olub. 2005-ci ildə şəhid M.Piriyev adına Əliabad kənd orta məktəbində orta təhsilini başa vurmuş Mübariz həmin il həqiqi hərbi xidmətə çağırılıb. Mübariz İbrahimov uşaqlıqdan hərbçi olmağı arzulayırdı. Doğulub boya-başa çatdığı kənddə hamı onun bu arzusundan xəbərdar idi. Mübarizin amalı torpaqlarımızın işğaldan azad olunması uğrunda vuruşmaq idi. Hərbi xidmətini Daxili Qoşunların "N" saylı hərbi hissəsinin Xüsusi Təyinatlı Bölüyündə keçirib. Hərbi xidmətini 2007-ci ildə çavuş rütbəsində başa vurub. Ardınca mülki işlərdə çalışmış, 2009-cu ilin avqust ayında yenidən gizir rütbəsində hərbi xidmətini davam etdirmişdir. Bir müddət sonra öz istəyi ilə cəbhə bölgəsindəki hərbi hissələrdən birində xidmət etməyə başlamışdır. Mübarizəyə atəşkəs zamanı tək qalxdı. Heç kimi narahat etmədən və kömək ummadan. Bu döyüşə nə qədər tələssə də, amma son məktubunu yazmağı da unutmadı: "Canım, atam və anam. Məndən sarı darıxmayın. İnşallah, cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə artıq ürəyim dözmür. Allaha xatir bunu etməliyəm. Ən azından ürəyim sərinlik tapar. Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəyəm. Şəhid olsam, ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim...".

Düşmən üzərinə tək hücum edərək gücünü göstərdi, hünərini dünyaya bəyan etdi. Azərbaycan torpağının belə oğullar yetişdirdiyinə dünya laqeyd qala bilmədi. İnanmaq çətin olsa da, həyat və gerçəklik bu idi. Zamanımıza örnək olan Mübariz azərbaycanlıların qanını almağa getdi. Neçə-neçə can aldı düşmən canından! Qorxu və vahimə yaratdı bir gecənin içində düşmən canında. Düşmənə aman vermədi. "Vətən", - söyləyib sinəsini qabağa verdi. 18 iyun 2010-cu il tarixində gecə saat 23:30 radələrində gizir Mübariz İbrahimov təkbaşına iki ordu arasındakı bir kilometrlik minalanmış sahəni keçdi. Ermənistan silahlı qüvvələrinin çox sayda əsgər və zabitini gözlənilməz birinci həmlədə məhv etdi. Sonra isə düşmənin öz silahlarından özünə qarşı istifadə edərək, 5 saat onlarla təkbətək döyüşdü. Düşməni ağır itkilərə məruz qoydu, onların zəif cinahlarını üzə çıxardı. Beləliklə, Azərbaycan döyüşçüsü səhər saatlarında qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid oldu. Amma düşməndən aman diləmədi. Onsuz da bu addımı atarkən, geri dönməyəcəyini əvvəlcədən bilirdi. Məqsədi patronu sona çatana qədər qisas almaq idi. Axı yoldaşlarına həmişə deyirdi ki, hərənin öz yolu var: "Mən isə yolumu seçmişəm. Düşmənə qan qusdurub ürəyimcə qisas almasam, elə bilərəm ki, Allahım da, valideynlərim də məni bağışlamaz! Vətənin azadlığı üçün qurban lazımdırsa, biri mən!"- dedi və elə də etdi.

**Mən ölüm qoy vətən yaşasın, nə qəm,**
**Ölən yox, öldürən etdim adımı.**
**Gənclər ibrət alsın bu əməlimdən,**
**Atıram mən adi qisas addımı.**

Hadisənin səhəri günü Atası Ağakərim İbrahimovdan oğlunu xəbər alanda, çoxlu silah götürüb və ərazidən uzaqlaşdığını bildirəndə, ata inamla və qətiyyətlə bildirir ki, mən oğlumu tanıyıram, sərhədə tərəf gedin. Cəsurluq, igidlik, mərdlik nümayiş etdirən, Azərbaycan əsgərinin qəhrəmanlıq rəmzinə çevrilən Mübariz İbrahimovu, məhz bu ata tərbiyə etmişdi. Onun dəyərlərinə də yaxşı bələd idi. Oğlu fərari, vətən xaini ola bilməzdi.

## "MÜBARİZ YAXŞI BİLİRDİ Kİ, O DÖYÜŞDƏN SAĞ-SALAMAT ÇIXA BİLMƏYƏCƏK, ANCAQ VƏTƏN, TORPAQ SEVGİSİ, ONDA OLAN VƏTƏNPƏRVƏRLİK RUHU ONU ŞƏHİDLİK ZİRVƏSİNƏ UCALTDI"

Ermənilər insanlığa yaraşmayan və insanlıq üçün qara ləkə olduqlarını bir daha Milli Qəhrəmanımızın nəşini belə qaytarmaq istəmədikləri zaman da ortaya qoydular və onu gizlətməyə çalışdılar. Ermənistan tərəfi heç bir sivil qaydalara əməl etmədən, onun cənazəsini qaytarmaqdan imtina edirdi. Bu, misli görünməmiş vəhşilik, mənəviyyata və dini normalara sığmayan hərəkət yalnız erməniyə məxsusdur. Azərbaycan Respublikasının, Ermənistan Respublikasının və Rusiya Federasiyası prezidentlərinin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair 27 oktyabr 2010-cu il tarixli birgə bəyanatına uyğun olaraq, eyni zamanda, Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının beynəlxalq təşkilatlarla apardığı müntəzəm və səmərəli danışıqlar nəticəsində Mübarizin cənazəsi 6 noyabr 2010-cu il tarixdə vətənə gətirildi. Şəhid qəhrəman İkinci Fəxri Xiyabanda dəfn olundu.

*"Düşmənə qan qusdurub ürəyimcə qisas almasam, elə bilərəm ki, Allahım da, valideynlərim də məni bağışlamaz!"*

Vida mərasimində iştirak edən Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev çıxışı zamanı onun vətənpərvərliyini yüksək qiymətləndirir: "Mübariz yaxşı bilirdi ki, o döyüşdən sağ-salamat çıxa bilməyəcək, ancaq Vətən, torpaq sevgisi, onda olan vətənpərvərlik ruhu onu şəhidlik zirvəsinə ucaltdı. Mübariz İbrahimov bütün gənclər üçün örnəkdir, nümunədir". Mübarizin qəhrəmanlığını dövlətimiz yüksək dəyərləndirdi. Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub-saxlanılmasında müstəsna xidmətinə və göstərdiyi igidliyə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görüldü. Xatirəsinin əbədiləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzaladı. Sərəncama əsasən, bu gün Biləsuvar rayonunun orta məktəblərindən biri Mübariz İbrahimovun adını daşıyır. Biləsuvar rayonunda küçələrdən biri Mübariz İbrahimovun adınadır.

Keçdiyi qısa 22 illik ömür yolu neçə-neçə əsrləri əhatə edəcək. Şücaəti, qeyri-adi cəsarəti ilə əfsanəyə çevrilən Mübariz İbrahimov özünəməxsus qəhrəmanlıq məktəbi yaratdı. Vətəni necə sevməyi, Azərbaycanı necə qorumağı bir daha əməlləri və keçdiyi şanlı yolu ilə bizlərə öyrətdi.

Azərbaycan Mübarizlərin qanını yerdə qoymadı. Zaman yetişdı və 44 günlük Vətən müharibəsində yetişən mübarizlər qisasi qiyamətə qoymadilar. Bu gün Azərbaycanda minlərlə MÜBARİZLƏR var. Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevin əmri ilə torpaqlarımız işğaldan azad olundu, düşmənə layiqli cavab verildi.

Bəli, tarix heç zaman unudulmur, tarix yazılır. Tarixi yazan isə Vətənin namuslu, mərd və MÜBARİZ oğullarıdır.

Bizim qəhrəmanlarımız ermənilərin yaratdığı "qəhrəmanlar" kimi mif deyil. Biz ermənilər kimi uşaq başı kəsən, qadın və qocalara divan tutanlari qəhrəman etmirik, bizim Mübariz kimi real igidimiz var ki, tarixə şəhidlik zirvəsinə yüksələrək adlarin yazıblar. Torpaqlarımızı işğaldan azad edən igid ŞƏHİDLƏRİMİZ!!!

**NƏZAKƏT ƏLƏDDİNQIZI**

TƏHLİL

# Ermənistanda anti-Rusiya maraqları: rus ayısı qəzəblənə bilər





### Erməni ictimaiyyətində yalnız anti-Rusiya maraqları deyil, həm də bütövlükdə ruslara qarşı antipatiya hissləri, rusofobluq xarakteri aşkar şəkildə bəlli olunmaqdadır

Ermənistanda anti-Rusiya xarakterli çıxışların saatbasaat artması barədə ötən yazılarımızın birində qeyd etmişdik. Lakin diqqət çəkən məqam budur ki, mövcud vəziyyət ara-sıra deyil, demək olar ki, hər gün və mütəmadi şəkildə özünü büruzə verməkdədir. Əsasən, KİV-lərdə gedən geniş anti-Rusiya barəsindəki məqalələrdə istər hakimiyyət, istərsə də əvvəlki iqtidar təmsilçiləri ən sərt şəkildə hədəfə alınmaqla sözün əsl mənasında atəşə tutulurlar. S?A xəbər verir ki, növbəti belə yazı ilə Armenianreport saytının 4 fevral 2022-ci il tarixində dərc edilmiş məqaləsində çıxış olunub. Erməni siyasi analitiki və jurnalisti Tevos Arşakyanın müəllifi olduğu məqalənin sərlövhəsi də maraqlıdır - Rusiya Ermənistanı udmağa hazırlaşır...

### Moskva erməniləri ağıllandırmaq üçün İrəvana ekspertlər qrupu göndərib

Beləliklə, məqalənin ilk sətrindəcə bildirilir ki, Kremlin Ermənistana münasibətindəki maraqları heç də utopik deyil, çünki ölkədə rusiyayönümlü beşinci kolon fəaliyyət göstərir. Müəllif digər erməni nəşri - "Hraparak"a istinad edərək yazır ki, içlərində jurnalistlər, politoloqlar və ictimai xadimlər olan Rusiyanın ekspertlər qrupunun Ermənistana səfərləri ona rus yazıçısı Qoqolun "Revizor" ("Müfəttiş") əsərini xatırladıb. Müəllif ironik şəkildə yazıb ki, Rusiya tanınmışlarının Ermənistana səfərləri müharibədən sonra ölkədə anti-Rusiya ruhunda yaranan fikirlərdən narahat olmaları ilə bağlıdır.

"Son günlər onlar Ermənistandakı rusiyayönümlü dairələrlə intensiv görüşlər keçirirlər. Erməni-rus münasibətlərinin yaxşılaşdırılması yönündə məsələləri müzakirə edir, anti-Rusiya köklənmələrinin yumşaldılması barədə danışırlar. Lakin belə bir məlumat var ki, görüşlər zamanı yeni ittifaq dövlətinin yaradılması ideyası ətrafında təbliğatlar aparılır və onlar erməni xadimlərini bu istiqamətdə təbliğatlar aparmağa çağırırlar", müəllif "Hraparak" qəzetinə istinadən xatırladır. SİTAT: "Nə deyək, hadisələrin mövcud vəziyyətə qədər inkişaf etməsi gözlənilən idi. Sonuncu müharibədən sonra erməni ictimaiyyəti yuxudan ayıldı və Rusiyanın müttəfiqlik keyfiyyətlərinin nədən ibarət olduğunu anladı..."




### IRI-Amerika sorğu mərkəzinin nəticələrinə görə, Ermənistana "təhlükə" yarada biləcək ölkələr Türkiyə və Azərbaycanla yanaşı, həm də Rusiyadır...

Tevos Arşakyan davam edərək yazır ki, çətin ki, Ermənistanda sağlam düşünən şəxs Moskvaya ümid edə bilsin. Bundan əlavə, o ABŞ-ın IRI sorğu institutunun apardığı sorğunun nəticələrini də xatırladıb. SİTAT: "Aparılan sorğunun nəticələrinə görə, Rusiya Ermənistana təhlükə yaradacaq ölkələr reytinqində üçüncü yerə sahibdir. Birinci və ikinci yerləri isə gözlənildiyi kimi, Türkiyə və Azərbaycan tutub. Rusiyanın isə bu siyahıda üçüncü yerə sahib olması qanunauyğundur. Erməni xalqı son illərdə ondan kifayət qədər çəkdiyini-çəkib. Və məsələ onda deyil ki, sorğunu amerikalılar keçiriblər. Onların buraya aidiyyatı yoxdur. Axı biz burada yaşayır və cəmiyyətimizdə ruslara qarşı kifayət qədər neqativ münasibət nümayiş etdirdiyini gözlərimizlə görürük".

### Tevos Arşakyan "Cəmiyyətimizdə ruslara qarşı neqativ münasibət" ifadəsi ilə nəyə eyham vurur?

Haşiyə çıxaraq qeyd etmək yerinə düşərdi ki, "Armenianreport" saytının analitiki burada öz hisslərini gizlədə bilməyərək yalnız Rusiyaya qarşı deyil, açıq-aşkar rus millətinə qarşı da antipatik hisslərini aşkara çıxarıb. "Cəmiyyətimizdə ruslara qarşı neqativ münasibət" ifadəsi də artıq həmin reallığı artıqlaması ilə sübuta yetirmiş olur. Bu, həm də monoetnik Ermənistanın reallığını isbat edən münasibət kimi də qiymətləndirilə bilər.

Beləliklə, erməni müəllif davam edir. SİTAT: "Bundan əlavə, biz Rusiyanı Ermənistana yönəlik yalnız siyasi və milli təhlükə kimi görmürük, həm də iqtisadi təhlükə yaratdığını bilirik. Ölkəmizin Moskvadan həddindən artıq asılı olduğunu nəzərə alsaq energetika və nəqliyyat sferalarında da tabeliyimiz görünməkdədir. Kremlə rəsmi İrəvana təzyiqlərini artırması üçün verdiyi qazın qiymətini artırmaq, Rusiya-Gürcüstan sərhədini bağlamaq kifayət edər. Və bununla da istənilən erməni hakimiyyəti dərhal daha sözəbaxan olacaq".

### Koçaryan və Paşinyan da ayrı-ayrılıqda hədəfə alınır

Buradan da aşkar görünür ki, əslində, erməni ictimai-siyasi rəyi çıxılmaz vəziyyətdədir və ölkə bütünlüklə Rusiyanın birmənalı tabeliyində qalıb. Bunu isə Tevos Arşakyan digər rakirsdan izah edir. Daha dəqiq desək, Ermənistanın əvvəlki rəhbərliklərini günahlandırır. SİTAT: "...Rusiyayönümlü beşinci kolonun lideri sözsüz ki, Putinin dostu Robert Koçaryandır. Həmin Koçaryan ki, onun nümayəndələri parlamentə oturublar və "Ermənistan" blokunu təmsil edirlər. Eləcə də onun tərəfdarları arasında silahlı qüvvələrə və xüsusi xidmətlər təsir edə biləcək adamları var".

"Armenianreport"un analitik yazarı sözügedən məsələdə mövcud iqtidarı - Nikol Paşinyanı da hədəfə almağa unutmayaraq bildirib ki, Paşinyan demək olar ki, 4 il müddətində bu strukturları (əsasən, güc strukturlarını-R.R.) rusiyayönümlü artıqlardan təmizləyə bilməyib və onlar nəinki Paşinyanın özünə, həm də bütün ölkəyə ciddi təhlükə yaradırlar. SİTAT: "Axı hakimiyyətə geri dönmək üçün bu, onların əsas tələsidir və onlar Ermənistanı Rusiyanın ağuşuna atmaqla gözlərini qırpmadan onu boğmağa, ölkənin "suverenliyini" (dırnaqlar bizimdir - R.R.) qurban verməyə hazırdırlar. Eyni zamanda, mövcud hakimiyyətin onların başları üzərində asılıb-qalmış təhlükəni nəzərə almayaraq passivliyi təəccüb və hiddət doğurmaya bilməz. Onlar hətta Baltik ölkələrinin təcrübəsini də tətbiq etmək istəmirlər, hansı ki, bu ölkələrə rus emissarlarının və təbliğatçılarının girişləri bağlıdır və rəsmi şəkildə qadağan edilib. Əgər onlar başqa adlar altında oralara düşürlərsə, dərhal aşkar edərək çölə tullayırlar.

Bizim hakimiyyət isə nəinki rus elçilərinə ölkəyə daxil olmağa icazə verirlər, həm də onlara öz adeptləri (həmfikirləri-R.R.) ilə gizli görüşlər keçirməyə şərait yaradırlar..."




### Yəqin ki, uzun illər Ermənistanı "yedirən", "içirən", "geyindirən" Moskva bənzər məqalələri, yanaşmaları gözündən yayındırmır...

Erməni müəllif hakimiyyətin Moskva ilə münasibətlərini pozmaq və vəziyyəti daha da gərginləşdirmək istəmədiyini yazır, həm də əlavə edir ki, bütün bunlar ölkəyə baha başa gələcək və ən əsası, olan-qalan "müstəqillik" də itiriləcək.

Nəticə isə budur - erməni müəllifi təəssüf ki, indi anlamağa başlayıb ki, onun ölkəsi öz müstəqilliyini və suverenliyini çoxdan, hətta onillər əvvəl itirib və bundan sonra Rusiya olmasın, digər ölkə olsun - bütün mənalarda asılı, vassal olaraq qalacaq, hətta öz mövcudluğunu itirəcək.

Rusiyaya qaldıqda isə çox yəqin ki, uzun illər Ermənistanı "yedirən", "içirən", "geyindirən" Moskva bənzər məqalələri, yanaşmaları gözündən yayındırmır...




**Rövşən RƏSULOV**

***Milli-mənəvi dəyərlərimizin qorunması, onların müəyyən bir çərçivədə təbliği əsas məsələlərdən biri kimi hər bir azərbaycanlını düşünməyə vadar edir. Zamanın müxtəlif illərində milli-mənəvi dəyərlərimiz meyar olaraq, xalqın milli düşüncəsinə, onun bir vətəndaş kimi formalaşmasına təsirini göstərmiş, bu gün də yetişən nəsil, məhz bu prosesin içərisində özünü, Azərbaycançılıq məfkurəsini dərk edərək, mövqeyini müəyyənləşdirir. Sözsüz ki, mənəvi dəyərlərimiz mənəviyyatımızı yaşadan dəyərlərin geniş bir məkanda təbliği əsasında reallaşır. Milli-mənəvi dəyərləri ilə tarixə söykənən Azərbaycan əsrlərdən bizə gəlib çatan abidələri, daş yaddaşı, milli əxlaqi dəyərləri, milli mədəniyyəti ilə yüksək məfkurəyə malik olduğunu bir daha göstərir. Bu ali dəyərlər milli mövcudluğumuzun, bir xalq olaraq yaşam tərzimizin, milli kimliyimizin göstəricisi, fərdi və fərqli modelimizdir. Xalqımızın mənəvi dünyasını zənginləşdirən, tariximizi və mədəniyyətimizi ucaldan milli-mənəvi dəyərləri qoruyub saxlamaq hər bir azərbaycanlının müqəddəs, mənəvi borcudur.***

# Milli-mənəvi dəyərlər xalqın vizit kartıdır



*Prezident İlham Əliyev: "Mən Prezident kimi sona qədər milli dəyərləri müdafiə edəcəyəm, dövlət müstəqilliyimizi müdafiə edəcəyəm"*

Təhlil

### "MÜASİR MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ MİLLİ DƏYƏRLƏR ÜZƏRİNDƏ QURULUB"

Bakıda keçirilən Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışı zamanı bildirdiyi kimi, "Milli-mənəvi dəyərlər dövlətimizin əsasını təşkil edir və mən dəfələrlə demişəm ki, müasir müstəqil Azərbaycan dövləti milli dəyərlər üzərində qurulub. Əminəm ki, biz bu dəyərləri qoruyub saxladıqca, dövlətimiz daha da qüdrətli olacaq, xalqımız da əbədi azad, müstəqil xalq kimi yaşayacaq". Təbii ki, Avropa ailəsinin üzvü olan Azərbaycanın iqtisadi inkişafı, ölkədə hökm sürən siyasi sabitliyi, suveren, müstəqil dövlət olmasının məntiqi nəticəsidir ki, bütün qapıları açaraq, sərhədləri aşır, qədim köklərə malik irsini, xəzinəsini təqdim edir. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin milli-mənəvi irsimizin inkişaf etdirilməsi istiqamətində bir-birinin ardınca imzaladığı sərəncamlar bu sahəyə ayrılan diqqətin bariz nümunəsidir. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin yürütdüyü siyasət nəticəsində ölkəmiz dünyada gedən qloballaşma prosesində milli-mənəvi dəyərləri qoruyub saxlayır, milli ideologiya, azərbaycançılıq məfkurəsi əsas aparıcı xətt olaraq təbliğ edilir. Prezident İlham Əliyevin bildirdiyi kimi "Biz nəsildən-nəslə əsrlər boyu bu milli ideologiyamızı, milli xüsusiyyətlərimizi ötürdük və beləliklə, özümüzü assimilyasiyadan qoruyurduq, kənar təsirdən qoruyurduq. Azərbaycanlılar həmişə dünyaya açıq olublar, amma öz mənəvi kodeksini həmişə hər şeydən üstün tutublar. Bir halda ki, azad olmadığımız dövrdə, əsrlər boyu həm müstəmləkə, həm başqa ölkələrin tərkibində yaşadığımız dövrdə əgər biz bu dəyərləri qoruyub saxlamışıqsa, indi, əlbəttə, biz bu dəyərləri qoruyub saxlamalıyıq".

### "VƏTƏNƏ BAĞLILIQ, VƏTƏNƏ SEVGİ, VƏTƏN MARAQLARINI HƏR ŞEYDƏN ÜSTÜN TUTMAQ HƏR BİR GƏNCİN BORCUDUR"

Vaxtilə 70 il sovet imperiyasının tərkibində yaşadığımız zaman təbliğat mexanizminin, təqdimatların qarşısına sədd çəkilsə də, məxfi arxivlərin araşdırılmasına imkan verilməsə də bu gün müstəqil, suverən dövlət olan Azərbaycan əsrlərlə formalaşmış zəngin irsini dünya xalqlarına təqdim edərək, onları təəccübləndirməklə yanaşı, bu cəmdə Azərbaycan vətəndaşının varlığını nümayiş etdirir. Əsrlərin, qərinələrin sorağıdır, bu dəyərlər. "İndi Azərbaycan müstəqildir və müstəqil siyasət aparır", deyən dövlət başçısı bildirib ki, heç bir kənar qüvvə bizim işimizə qarışa bilməz: "Düzdür, belə cəhdlər olub və ola bilər ki, olacaq. Ancaq bu cəhdlər heç bir nəticə verməyib və verməyəcək. Ancaq digər çağırışlar var, digər məsələlər var ki, biz gənclərimizi bundan sonra da mütləq vətənpərvərlik əsasında tərbiyə etməliyik. Vətənə bağlılıq, Vətənə sevgi, Vətən maraqlarını, dövlət maraqlarını hər şeydən üstün tutmaq hər bir gəncin borcudur". Milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin dərindən öyrənilməsi və araşdırılması müasir cəmiyyətimizin prioritet istiqamətlərindən biridir. Tarixi təcrübə də göstərir ki, öz soykökündən, tarixindən, milli-mənəvi dəyərlərindən uzaq düşən millətlər və dövlətlər müəyyən zaman kəsiyində yox olmaq, tarix səhnəsindən birdəfəlik silinmək təhlükəsi ilə üz-üzə qalmışlar.

### "BU GÜN AZƏRBAYCAN CƏMİYYƏTİ VƏ AZƏRBAYCAN İQTİDARI BİRMƏNALI ŞƏKİLDƏ MİLLİ MARAQLARIN KEŞİYİNDƏ DAYANIR"

Mənəvi dəyərlər xalqın dünyagörüşünün izahı deməkdir və bir növ xalqın pasportudur. Xalqımız əsrlərə söykənən dəyərləri ilə fəxr edir. Cənab Prezident yeni çağırışlara gəldikdə isə bunun qloballaşma ilə bağlı olduğuna diqqətə çəkib: "Qloballaşma termin olaraq indi dünya leksikonundan çıxarılır. Çünki bu cərəyana qarşı dünyada çox geniş müqavimət göstərilmişdir, ancaq ideya olaraq qalır. Yəni, qloballaşma bu gün başqa ad altında kök salır. Bu meylin əsas məqsədi müxtəlif ölkələrin daxili işlərinə qarışmaq, bərabərlik, qloballaşma, yaxud da insanları, xüsusilə gəncləri vahid dəyərlər, dırnaqarası dəyərlər ətrafında birləşdirmək, kosmopolit gənclər yetişdirmək və təbii ki, ondan sonra o ölkələri idarə etməkdir. Yəni, məqsəd dəyişmir və dəyişməyəcək. Bunu biz tarix boyu görürük. Əgər hətta uzaq tarixə nəzər salsaq görərik ki, məqsəd və məram dəyişmir, forma dəyişir, mübarizə üsulları dəyişir. Hansısa məsələni həll etmək üçün bu məsələnin pərdələnməsi, yaxud da, əgər belə demək mümkündürsə, qablaşdırılması dəyişir, amma mahiyyət dəyişmir. Yəni, hegemonluq uğrunda mübarizə, xüsusilə, böyük önəm daşıyan ölkələr, zəngin təbii resurslarla özünü təmin etmiş ölkələr və çox strateji coğrafi yerləşməyə malik olan ölkələr xüsusi diqqət cəlb edir". Əlbəttə ki, Azərbaycan da belə zəngin resuslara malik olan bir dövlətdir. Bu baxımdan, hər zaman bu hallarla rastlaşıb: "Bax, bu niyyətlə üzləşirik, buna müqavimət göstəririk və deyə bilərəm ki, bu təhlükələri dəf edə bilmişik. Bu gün Azərbaycan cəmiyyəti və Azərbaycan iqtidarı birmənalı şəkildə milli maraqların keşiyində dayanır. Mən Prezident kimi sona qədər milli dəyərləri müdafiə edəcəyəm, dövlət müstəqilliyimizi müdafiə edəcəyəm. Yəni, müstəqillik deyəndə mən atributları nəzərdə tutmuram - real müstəqillik. Sən real müstəqil siyasət apara bilirsən, yoxsa yox? Yoxsa kiminsə sözü ilə oturub-durursan, kiminsə qarşısında baş əyirsən. Azərbaycan heç vaxt bütün bu cəhdlərə əməl etmir, əksinə, biz bütün meydanlarda vuruşmuşuq və qalib gəlmişik".

### "BU QLOBALİSTLƏRİN - MƏN ONLARI ŞƏRTİ OLARAQ BELƏ ADLANDIRIRAM - SOROSÇULARIN MƏQSƏDİ MƏHZ GƏNCLƏRDİR"

Əlbəttə ki, hər bir xalqın, millətin mövcudluğu onun adət-ənənələrinə bağlılığından asılıdır. Azərbaycan xalqı məhz milli-mənəvi dəyərlərinə sadiqliyi sayəsində özünün mövcudluğunu, milli özünəməxsusluğunu bugünədək qoruyub saxlayıb. Xalqımızın ən böyük sərvətlərindən biri onun zəngin milli, mənəvi, dövlətçilik irsinə sahib olmasıdır. Milli dövlətin formalaşmasında, güclü və əbədiyaşar olmasında onun mənəvi əsaslarının milli dəyərlərlə səsləşməsi böyük əhəmiyyət kəsb edir. Dövlət başçısı onu da bildirib ki, gənclər, əlbəttə ki, daha tələbkar olur, onlar həyata yeni başlayır: "Açıq deməliyəm, gəncləri əyri yola gətirmək, yaxud da yoldan çıxarmaq daha asan olur. Ona görə də bax, bu qloballistlərin - mən onları şərti olaraq belə adlandırıram - sorosçuların məqsədi məhz gənclərdir. Ona görə fondlar yaradılır, o fondların xətti ilə ianələr verilir, müxtəlif yaxşı, gözəl məna daşıyan proqramlar altında məhz bu dağıdıcı missiya həyata keçirilir ki, gəncləri öz dövlətinə qarşı, ilk növbədə, öz əcdadlarına, öz tarixinə qarşı, öz dəyərlərinə qarşı qaldırsınlar və sonra onlardan zombi kimi istifadə etsinlər".

### "BİZİM ÇOX ZƏNGİN MƏDƏNİYYƏTİMİZ, TARİXİMİZ VAR, ƏDƏBİYYATIMIZ, ANA DİLİMİZ VAR"

Bildirməliyik ki, müasir dünyada sürətlə davam edən qloballaşma prosesi bizim ölkədən də yan keçməyib. Buna baxmayaraq, biz qloballaşma adı altında öz milli-mənəvi dəyərlərimizi unutmamalı, bu dəyərlərə sadiq olmalıyıq. Milli-mənəvi dəyərləri hər şeydən üstün tutulmalı, bu dəyərlər istənilən məqamda müdafiə edilməli, qorunmalıdır. Qloballaşma digər xalqlara məxsus dövlətdin modellərinin, adət-ənənələrinin, milli mentalitetimizə xas olmayan dəyərlərinin ölkəmizə gətirilməsi deyil. "Milli dəyərlər təkcə əcdadlar qarşısında bizim mənəvi borcumuz deyil, eyni zamanda, ölkəmizi daim müstəqil saxlamaq, ölkəmizi daim kənar təsirdən qorumaq və nəsillər arasındakı o mənəvi ipləri qırmamaq üçün bu, mütləq lazımdır. Çünki bizim çox zəngin mədəniyyətimiz, tariximiz var, ədəbiyyatımız, ana dilimiz var. Ana dilimiz də bax, bu milli dəyərlərin tərkib hissəsidir. Biz azad olmadığımız dövrdə onu qorumuşuq... Bütün bu amillər, o cümlədən bizim bayramlarımız, adət-ənənələrimiz hər birimiz üçün əsas dəyər olmalıdır. Bax, belə olsa, Azərbaycan həmişə müstəqil olacaq və həmişə uğur qazanacaq", - deyə Cənab Prezident bildirib.

***ZÜMRÜD BAYRAMOVA***

# "Azərbaycan ilə Türkiyə arasında münasibətlər ən yüksək zirvədədir"



*Milli Məclisin yaz sessiyasının ilk plenar iclasında "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsi təsdiq edildi. Bəyannamənin təsdiq olunması adi bir hadisə deyil. Çünki Şuşa Bəyannaməsindən irəli gələn müvafiq addımların atılması, strateji vəzifələrin yerinə yetirilməsi postmünaqişə dövründə hərbi-siyasi təhlükəsizliyə və müttəfiqlik münasibətlərinin daha da gücləndirilməsinə müstəsna töhfə olacaq.*

Xüsusilə də nəzərə almaq lazımdır ki, bölgədə qlobal əhəmiyyətli yeni geostrateji konfiqurasiyanın formalaşmasında Azərbaycan-Türkiyə müttəfiqliyi aparıcı amil kimi çıxış edir. İki qardaş ölkənin birgə fəaliyyəti və ortaq təşəbbüsləri əsasında regionun geostrateji arxitekturası yenidən qurulur. SİA xəbər verir ki, bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva söyləyib.

Deputat bildirib ki, ən mühüm məqamlardan biri Şuşa Bəyannaməsinin imzalanması ilə hər iki ölkənin yeni hərbi-siyasi təhlükəsizlik çətiri formalaşdırması, yeni milli və regional təhlükəsizlik mexanizmi yaratmasıdır. Bu, həm də hansı geosiyasi qütbdən və ya cəhətdən gəlməsindən asılı olmayaraq, təhdidlərə qarşı birgə mübarizə platformasının əsasının qoyulmasıdır. Bəyannamədə müdafiə məsələlərinin əks olunması elə hərbi-siyasi təhlükəsizliyin təmin olunmasına - istənilən təhdid və təcavüzün qarşısının alınmasına hesablanıb. Sənəddə vurğulanır: "Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər". Bütün bu amilləri nəzərə alaraq qeyd etmək olar ki, Şuşa Bəyannaməsinin hər iki ölkənin parlamentində təsdiq olunması strateji əhəmiyyət daşıyır.

Sevinc Fətəliyeva deyib ki, Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən ötən il imzalanmış müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə dostluğunun və qardaşlığının zirvə nöqtəsi, strateji tərəfdaşlığın yeni mərhələsidir. Azərbaycan ilə Türkiyə arasında siyasi, iqtisadi, mədəni, humanitar və hərbi-strateji münasibətlər ən yüksək zirvədədir. Tərəflər, eyni zamanda, beynəlxalq arenada bir-birinin maraqlarını, mənafelərini qətiyyətlə müdafiə edirlər, prinsipial dəstək nümayiş etdirirlər. Xüsusilə də, suverenlik və ərazi bütövlüyünün qorunması məsələsində rəsmi Bakı ilə Ankara ortaq mövqedən çıxış edir. Bütün bu məqamlar Şuşa Bəyannaməsində də öz əksini tapıb.

Şuşa Bəyannaməsinin tərəflərin siyasi iradəsini əks etdirməklə yanaşı, regional təhlükəsizlik amili kimi də müstəsna əhəmiyyətə malik olduğunu qeyd edən deputat deyib: "Bu, olduqca vacib məqam və prinsipial məsələdir. Azərbaycan və Türkiyə arasında bu zamana qədər hərbi-texniki və strateji əməkdaşlıq əlaqələrinin inkişafı diqqət mərkəzində olub. Şuşa Bəyannaməsinin imzalanması isə artıq hərbi-siyasi təhlükəsizliyin təmin olunması və başqa qüvvələrdən gələcək təhdidlərlə mübarizə baxımından hüquqi əsaslar formalaşdırır".

Beləliklə, Azərbaycan Respublikasının Milli Məclisinin Şuşa Bəyannaməsini təsdiqlədiyini deyən S.Fətəliyeva bildirib ki, eyni addımın yaxın günlərdə Türkiyə Böyük Millət Məclisi tərəfindən atılması da gözlənilir. Bununla da Türkiyə-Azərbaycan müttəfiqliyi qanun səviyyəsində təsbit olunur. "Şuşa İli"ndə Şuşa Bəyannaməsinin hər iki ölkənin qanunverici orqanı tərəfindən təsdiqlənməsi ortaq təhlükəsizliyimizin təmin olunması və ikitərəfli, çoxşaxəli münasibətlərin inkişafı baxımından böyük önəm daşıyır. Bəyannamədən irəli gələn strateji vəzifələrin yerinə yetirilməsi Azərbaycan-Türkiyə birliyinin gücləndirilməsinə və ölkələrimizin regional güc mərkəzi kimi beynəlxalq arenada mövqeyinin möhkəmlənməsinə müstəsna töhfə verəcək.

yap.org.az

# "Prezidentin səsləndirdiyi fikirlər milli vəzifələr baxımından strateji əhəmiyyətlidir"

***"Prezident İlham Əliyevin gənclərlə görüşdə səsləndirdiyi fikirlər milli vəzifələr baxımından strateji əhəmiyyətli, Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki yeri və rolunun müəyyənləşdirilməsi kontekstində bir çağırış idi". Bu sözləri SİA-ya açıqlamasında deputat Hikmət Babaoğlu deyib.***



Onun sözlərinə görə, əldə etdiyimiz tarixi zəfər və onun nəticələrinin dünyaya qəbul etdirilməsi hadisəsini şərh edərkən mənəvi məsələləri önə çəkən Prezident İlham Əliyev milli özünüdərk, vətənpərvərlik, milli birlik və həmrəylik kimi mənəvi strateji komponentlər üzərində xüsusi dayanaraq bütün bu nailiyyətlərimizdə mənəvi keyfiyyətlərin mühüm rol oynadığını qeyd etdi: "Prezident İlham Əliyev dövlətçilik institutunun da əsasını təşkil edən komponentlərdən biri kimi mənəvi-siyasi dəyərlərin əhəmiyyətindən danışaraq bildirdi ki, milli-mənəvi dəyərlər dövlətimizin əsasını təşkil edir: "Mən dəfələrlə demişəm ki, müasir müstəqil Azərbaycan dövləti milli dəyərlər üzərində qurulub. Əminəm ki, biz bu dəyərləri qoruyub saxladıqca, dövlətimiz daha da qüdrətli olacaq, xalqımız da əbədi azad, müstəqil xalq kimi yaşayacaq".

Əslində bu fikirlər mili dövlətin mövcudluğunun başlıca mənəvi-strateji komponetlərindən birinin milli-mənəvi dəyərlər olduğunu aydın ifadə etməklə onu qoruyub və əbədi etməyin də yolunun məhz bu dəyərlərə sadiq olmaqdan keçdiyini ifadə edir. Bu mənada Prezidentin fikirləri konseptualdır. Gənclər üçün çağırışlar və vəzifələr müəyyən edir, yol göstərir. Bu planda Prezident İlham Əliyev milli yaddaşın əsas komponentlərindən biri olan tarixi yaddaş və onun milli-mənəvi dəyərlərin formalaşmasında oynadığı rola nəzər yetirərək tarixi yaddaşın vacibliyinə toxundu. Çünki tarix təkcə dünən yaşananların xronoloji ardıcıllığı deyil, həmçinin də sabahı necə yaşayacağımızın təcrübə, dərsdir, lap elə ibrətdir. Tarixi hadisələri unutmamaq, tarixdə yol verilmiş səhvləri yadda saxlayaraq onu bir daha təkrar etməmək, kimin kim olduğunu bilmək və onunla münasibətləri necə qurmağın daha doğru olduğunu yəqin etmək və milli taleyimizlə bağlı qərarlar qəbul edərkən bütün bunları nəzərə almaq həmişə strateji əhəmiyyət daşıyıb və daşıyacaq. Ona görə də Azərbaycanın ən yeni və şanlı hərbi-siyasi tarixinin memarı kimi Prezident İlham Əliyev bildirdi ki, biz tariximizi yaxşı bilirik və bilirik ki, uzun illər, əsrlər boyu Azərbaycan müstəqil deyildi, başqa ölkələrin tərkibində yaşayırdı: "Ancaq buna baxmayaraq, öz milli xüsusiyyətlərini itirmədi, milli xüsusiyyətlərini qorudu. Nəyə görə? Məhz ona görə ki, biz həmişə öz milli dəyərlərimizə sadiq olmuşuq, ənənələrə sadiq olmuşuq, onları qorumuşuq. Biz nəsildən-nəslə əsrlər boyu bu milli ideologiyamızı, milli xüsusiyyətlərimizi ötürürdük və beləliklə, özümüzü assimilyasiyadan qoruyurduq, kənar təsirdən qoruyurduq".

Gənclərlə görüşdə səsləndirilən fikirlərin əsas istiqamətlərindən birini də qlobal imperializmin müxtəlif ideoloji siyasi mərkəzləri tərəfindən gənclərin hədəf kimi müəyyənləşdirilməsi onların davranışlarının və milli kimliklərinin sorğulanması və manipuliyasiya edilməsi cəhdləri ilə bağlı idi. Şübhəsiz ki, hər bir xalqın gəncliyi onun gələcəyidir. Bir xalqın gəncliyini təsir altına salmaq o xalqın gələcəyi ilə bağlı söz sahibi olmaq deməkdir. Hazırda vahid dəyərlər adı altında bəzi universal dəyərləri milli dəyərlər yerinə qoymaqla gənc nəsli öz milli dəyərlərindən uzaqlaşdırmaq cəhdləri də əslində elə bu məqsədə xidmət edir. Azərbaycana qarşı da belə addımlar ardıcıl olaraq həmişə atılır. Bütün bunları nəzərə alan Prezident İlham Əliyev bu məsələnin üstündə də ayrıca dayanaraq bildirdi ki, yeni çağırışlara gəldikdə isə bu, qloballaşma ilə bağlıdır: "Düzdür, qloballaşma termin olaraq indi dünya leksikomundan çıxarılır. Çünki bu cərəyana qarşı dünyada çox geniş müqavimət göstərilmişdir, ancaq ideya olaraq qalır. Yəni, qloballaşma bu gün başqa ad altında kök salır. Bu meylin əsas məqsədi müxtəlif ölkələrin daxili işlərinə qarışmaq, bərabərlik, qloballaşma, yaxud da insanları, xüsusilə gəncləri vahid dəyərlər, dırnaqarası dəyərlər ətrafında birləşdirmək, kosmopolit gənclər yetişdirmək və təbii ki, ondan sonra o ölkələri idarə etməkdir".

Göründüyü kimi təsbit edilmiş gerçəklik və düzgün ifadə edilən ideoloji istiqamət gənclərimizin qlobal imperializmin strateji toruna düşməmləri üçün vacib çağırışdır. Ancaq Azərbaycanda həyata keçirilən düzgün gənclər siyasəti bu vaxta qədər bəzi dağıdıcı ideoloji mərkəzlərin bu planlarının qarşısını vaxtında alıb. Elə Gənclər Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər də Azərbaycanın gələcəyi olan gənclərimiz üçün konseptual əsaslarda bir yol xəritəsi hesab edilə bilər".

**Arzu Qurbanzadə**

# Doğum günü depressiyası nədir?




***Hamımız həyatımızda ən azı bir dəfə bunu edirik. Ad gününə toplaşırıq, tortun üstünə şam qoyuruq, bir arzu tuturuq və şamları söndürürük. Yaxşı, amma niyə? Bu davranışın mənşəyi və mənası nədir? Niyə biz öz ad günümüzü özümüzlə yox, başqaları ilə qeyd edirik? Niyə şamdan istifadə edirik? Niyə arzu tuturuq?***

**Əvvəli-Səh-10**

Doğum günlərində tort və ya tortdan istifadə tarixi Qərbi Avropa cəmiyyətlərində 19-cu əsrin ortalarına gedib çıxır. 1746-cı ildə Almaniyada qraf Lüdviq fon Zinzendorf ad günü şənliyi keçirdi və bu gecənin qonaqlarından olan Endryu Frey qeyd etmə haqqında çox ətraflı məlumat verib. Bu tarixdən sonra Almaniyada bir çox böyüklərin və uşaqların ad günləri belə hallar olur. Ad günü tortunun və qeyd etmənin tarixi, yəqin ki, çox daha əvvələ gedib çıxır. Lakin bu ənənənin Avropada necə başladığı və yayıldığı dəqiq məlum deyil.

1850-ci ildən əvvəl ABŞ-da ad günlərini qeyd etmək indiki kimi universal bir ənənə deyildi. Baxmalı çox uşağı olan analar ad günlərinə etinasız yanaşırlar. Çünki ad günləri çox tez-tez olur.



Almanların insanın həyatının hər ili üçün şam yandırmaq ənənəsi ABŞ-da tez mənimsənilmədi. Amerika qəzet və jurnallarında ad günü şam üfürmə ənənəsinə ilk istinadlar yalnız 1870-ci illərin əvvəllərində tapılıb. 1871-ci ildə nəşr olunan A Ladies Repository məqaləsi, almanlar kimi Amerikada şam ənənəsini dəstəkləyən ən erkən ingilisdilli nəşrlərdən biridir.

O yazır: Nəhəng, bəzəkli ad günü tortu masaya qoyulur və şamlarla əhatə olunur, onların sayı uşağın yaşı ilə müəyyən edilir. Körpəlik dövrünü təmsil edən ilk şam söndükdən sonra toplanan ailə və qonaqlar müvafiq mahnının sətirini oxuyaraq birləşirlər. Beləliklə, hər il musiqi ilə başa çatır. Uşağın qəlbində daha şirin, daha gözəl təəssürat nə yarada bilər?

Doğum günü şəxsinin şamları yandırmaq əvəzinə üfürməsi ənənəsi 1880-ci illərə təsadüf edir. 1881-ci ildə İsveçrə ilə bağlı araşdırmalar aparan folklor tədqiqatçıları İsveçrənin orta təbəqəsində aşağıdakı "xurafatı" gördülər: Ad günü tortunun ətrafında hər il üçün bir şam yandırılmalıdır... Ad günü olan şəxs tortu yeməzdən əvvəl şamları bir-birinin ardınca söndürməlidir. Burada arzu etməkdən söhbət getmir. Bu ənənənin fərqli bir versiyası Amerikada 1880-ci illərin əvvəllərində meydana çıxdı.

Ad günü depressiyası və ya ad günü kədəri deyilən bir anlayış var. Bəzi insanlar belə özəl günlərdə xatırlanmaq istəmirlər. Çünki özlərini kifayət qədər kədərli, laqeyd və maraqsız hiss edirlər. Hər xatırlatma hadisəsi və ya cümləsi ad günü depressiyasına səbəb olur. Demək olar ki, bu günə qədər yaşanan bütün gün bir film lenti kimi insanın gözünün önündən keçir. Ancaq daha çox neqativ hallar ağla gəlir. Bəzi insanlar doğum günündə özünü çox kədərli və bədbəxt hiss edir. Bəzi hallarda bu hisslər təkcə həmin gündə yaranmır. Bir gün əvvəl başlayır və sonrakı günə qədər uzanır.

Ad günü depressiyası nədir?

Doğum günü depressiyasının psixi sağlamlıq vəziyyəti ilə əlaqəsi varmı? Narahatlıq, mükəmməllik, tənhalıq və ya depressiya bu günlərdə xüsusilə artır. Çünki insanın keçmişindən dərin və sıx peşmançılıqları var.

Xülasə edək:
- insanın keçmiş həyatı
- ad gününün mənası
- eqoizm
- özünü qəbul etmə

**Ad günü depressiyasının səbəbləri nələrdir?**

Doğum günü depressiyasının mümkün səbəblərini nəzərdən keçirmək lazımdırsa, ilk növbədə, mənfi həyat təcrübələri diqqətimizi çəkir. Bəzi insanlar bu günləri əyləncə ilə keçirirlər. Bəzi insanlar üçün qocalmaq yaxşı bir şey deyil. Ona görə də bu yaşda olmaq istəmədiyini düşünür. Digər tərəfdən, çətin dövr keçirən insanlar da belə anlarda kədərlənirlər.



Doğum günündə travmatik bir təcrübə keçirmiş birini düşünün. Hər ad günü bu insan üçün bir tətik olur. Bu həyatla necə davranacağını bilmirsə, doğum günü depressiyasına düşəcək. İnsanın özünü pis hiss etməsinin digər mümkün səbəbləri:
- xroniki depressiya
- narahatlıq
- qocalmaq qorxusu

Bütün bu səbəblər insanın üzülməsi üçün tutarlı səbəblərdir.

Ad günü depressiyasının simptomları

Doğum günü depressiyasının simptomları çox vaxt normal depressiyaya bənzəyir. Bəs bu simptomları necə müşahidə edirik?
- doğum gününüzdən bir neçə gün əvvəl əhvalınızda dəyişiklik
- həmişəkindən daha kədərli və ya daha çox depressiyaya düşmək
- həmişəkindən daha tez-tez ağlamaq və ya qəzəblənmək
- keçmiş təcrübələr haqqında daha çox düşünmək
- tamamlanmamış məqsədlər haqqında daha çox düşünmək
- tək olduğumuz üçün özümüzü günahlandırırıq
- ölüm qorxusu
- hərəkət etmək üçün enerjisiz hiss
- adətən etməkdən zövq aldığımız şeylərdən imtina etmək
- yuxu rejimində mənfi dəyişiklik
- iştahsızlıq
- diqqəti cəmləmək və ya konsentrasiya etməkdə çətinlik
- fiziki ağrılar
- ad günündən qaçmaq istəyir
- qeyd etmək və ya sürpriz etmək istəməmək
- özümüzü təcrid etmək istəyi

Ad günü depressiyası ilə necə mübarizə aparmaq olar?

Doğum günü kədəri insanın mənfi emosiyalardan qurtulmasının əlamətidir. Sizi bədbəxt edən əsas duyğuya diqqət yetirməsəniz, bu vəziyyət öz-özünə keçməyəcək. Hər il təkrar-təkrar yaşadıqlarınızı hamıdan yaxşı bilirsiniz. Odur ki, sizi bu hissi yaşamağa vadar edən əsas səbəbləri nəzərə almalısınız.

Belə xüsusi hallarda niyə kədərləndiyinizi düşünün. Sizi bu hisslərə vadar edən nədir? Bir həftə əvvəl özünüzü yaxşı hiss edirdiniz. Bəs, nə oldu ki, hissləriniz birdən dəyişdi? Əsas məsələ narahatlıqdırsa, narahatlığınız üçün psixoloji dəstək alın. Siz mühakimə etmədən duyğularınıza yaxınlaşdığınız zaman onlar da sizə mərhəmətlə yanaşacaqlar. Sizi bədbəxt etmək üçün mənalı bir səbəbiniz olmalıdır. Kədərinizin öhdəsindən necə gələcəyinizi bilmirsinizsə, proses daha intensiv şəkildə davam edəcək.

Problemin öhdəsindən gəlmək bacarığı, əsasən, ailə tərəfindən öyrədilir. Əgər insan bu vəziyyəti ailəsindən öyrənməyibsə, zamanla özü öyrənəcək. Bəzən həyat istədiyimiz kimi getmir. Biz bu hissləri görə bilmirik, çünki özümüzü tək və çarəsiz hiss edirik. Bu səbəblə onlayn psixoloq dəstəyi alacağımız problemlərlə necə məşğul olacağımıza dair bir mesaj verir.

*Ardı Səh. 11*

# ARAŞDIRMA

# Doğum günü depressiyası nədir?





SİA məsələ ilə bağlı araşdırma apararaq psixoloq və ekspertlərin fikirlərini öyrənib.



**"Ailə Dünyası" Ailələrə Hüquqi Yardım İctimai Birliyinin sədri Gülayə Səfərova:** "Hər bir insanın təqvimdə özünəməxsus bir günü var ki, o da doğum günüdür. Həmin günü uşaq olanda səbirsizliklə gözləyirdik. Əvvəllər adətən bizdə uşaqların doğum gününü təmtəraqlı keçirirdilər. Amma indi bir çox insanlar yaşından asılı olmayaraq doğum günlərini xüsusi təmtəraqla keçirməyə üstünlük verirlər. Əslində, doğum gününü qeyd etmək insanın xarakterindən asılıdır. Əgər bununla onlar özlərini özəl günlərində xoşbəxt hiss edirlərsə, çox gözəl, mən alqışlayıram. Amma şəxsən mənim üçün doğum günü adi gün deməkdir. Ad günümü qeyd etməyə həvəsli olmasam da, əzizlərim, doğmalarım, dostlarım özəl günümdə hər zaman yanımda olurlar. Bu da mənim üçün ən yaddaqalan günlərimdən biri olur".



**Psixoloq Mahuxanım Teymurova:** "Özəl günlər, bayramlar bizi mənəvi olaraq xoş hiss etdirir. Lakin bəzi insanlar özəl günləri və bayramları qeyd etməyi sevmir. Hər bir mövzuda olduğu kimi, bu mövzuda da təbii ki, psixolojik vəziyyətimiz özünü göstərir. Qeyd etməyən şəxslər öz mənəvi dünyaları ilə xoşbəxt olmayan, depressiv olan şəxslərdir. Yəni, nəyisə qeyd etməyə nə həvəsləri olmur, nə də ehtiyac olduğunu düşünmürlər. Həm özləri, həm ətrafda mənəvi olaraq problem yaşayırlar. Hər şeyin altda yatan səbəbi olduğu kimi bu mövzunun yaşanmasında müəyyən səbəbləri ola bilər. Lakin hər insanda bu səbəb fərqlidir. Bunun üçün əgər şəxs özünü narahat hiss edirsə, həyatdan məmnun deyilsə, özü ilə xoşbəxt deyilsə, psixolojik dəstək almağı məsləhətlidir".



**Psixoloq Fidan Namazova:** "Doğum günü insanın uşaqlıq dövrləri üçün çox önəmli olur. Çünki həmin gün o diqqət mərkəzində olur, həmişəkindən çox sevilir və hədiyyələr alır. Zaman keçdikcə insanlar bu emosiyaları yalnız doğum gunundən deyil digər hadisə və insanlardan almağı bacarır. Bu səbəbdən yaşa dolduqca doğum günü əyləncələri insanlara əvvəlki həyəcanı adətən yaşatmır.

Amma bilirik ki bütün uşaqlarda və doğum günü eyni keçmir və ümumiyyətlə doğum günün qeyd etməyən ailələr var. Bunlardan təbii ki insanın anadan olma gününə qarşı fərqli münasibət formalaşdırır. Adətən yaşlı insanlar (yetişkin) insanların öz ətrafında təmtəraqlı məclislər qurması özünə diqqət, qayğı, şöhrətpərəslik, göstəriş və ya sadəcə içindəki uşaqlıq hisslərin nəticəsi olur.

Şən və əyləncə dolu insanlar ad günü mərasiminə böyük həyacan və həvəslə yanaşır. Onlar üçün bu hadisə əylənməyə və sevinməyə səbəbidir. Doğum gününü qeyd etməkdən çəkinən insanlar isə əsasən yaşlanmaqdan qorxan, ad günü ilə bağlı travma yaşayan və ya əylənməyi sevməyən insanlar olur.

Eyni tarixdə yaxınını itirən insanlar da həmçinin qeyd etməyi sevmir və yaxud xasiyyətcə və ya vəzifəcə daha "ağır" insanlar ad günü yığıncağında qeyri ciddi bir tədbir kimi baxırlar. Doğum günü tədbirinə olan münasibətləri bir mənalı dəyərləndirmək olmaz.

SİA araşdırma mövzusu ilə bağlı şəhər sakinlərinin fikirlərini də öyrənib:



**Şəhər sakini Fatma Abdulla:** "Doğum günü çox xüsusi bir gündür. Nəzərə alsaq ki, bu, hər ildə bir dəfə qeyd olunur və insanın həyatında önəmli məna kəsb edir. Şəxsin geridə qoyduğu ilin nə ilə yadda qaldığına, həyatında hansı nailiyyətlər qazandığına nəzər yetirmək üçün fürsətdir. Təbii ki, hər kəsin öz seçimidir, amma mən qeyd etməyi sevirəm. Lakin təmtəraqlı deyil. Çünki 365 gündə doğum günümdən başqa yaddaqalan və çox böyük önəm kəsb edən günlər də olur. Bu gün kimin ad günüdürsə, təbrik edirəm".






**Şəhər sakini Sona Şıxəmirli:** "Düşünürəm ki, bu, psixoloji bir şeydir. Yəni elə insanlar var ki, doğulduğu gün ona çox özəl gəlir, özəl hiss edir və həmin gün sevdiyi insanların yanında olmağını istəyir. Elə insanlar da var ki, onlara doğum günü o qədər də fərqli, özəl gün kimi gəlmir və bu səbəbdən ötrü də xüsusi yığıncaq, şənlik və s. ehtiyac duymur. Amma bu da bir gerçəkdir ki, məncə, bəziləri də sırf göstəriş xətrinə böyük məsrəflərə girirlər. Özümə qalanda isə doğum günüm mənə görə özəldir. Amma təmtəraqlı yığıncaqdansa, dostlarım və ya ailəmlə keçirməyi üstün tuturam".

**Şəhər sakini Aysu Məmmədova:** "Əslində, tam olaraq ad günü məsələsi yoxdur. Bu, Pagan inancıdır. Ay tanrısı Artemise nəzərən qeyd olunan bir şeydir. Ona görə bəzi insanlar bu aspektden yanaşıb keçirməməyi seçir. Bəzi keçirməyənlər isə, ümumiyyətlə, diqqət mərkəzində olmağı sevmir. O əvvəldən günləri sayan, həvəslə qeyd edən insanlar məncə həm o günü özəl sayır, həm diqqət mərkəzində olmağı sevir, həm də digərlərindən fərqli olaraq həyatlarının bir gününü daha özəl hiss etmək istəyirlər".

***Ayşən Vəli***

# "İstənilən cəmiyyətin gələcəyi təhsildir"



İctimai fəal Nərgiz Xələfin SİA-ya verdiyi müsahibəsini təqdim edirik:

***- Gənclər Gününün təsis edilməsindən danışarkən gənclərin inkişafı baxımından hansı işlər görülüb və görülməsi də bundan sonra labüddür?***

- Azərbaycan gəncliyi iki il bundan qabaqkı gənclik deyil. Tamamilə ruhunu, əhvalını, formatını dəyişmiş bir gənclikdir. Əslində, başlanğıcını Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyan bu gənclər siyasəti artıq Onun hakimiyyətə gəldiyi dövrdən daha da güclənməyə başladı və bu gün cənab Prezidentimiz bu siyasəti bütün dövlət siyasətinin vacib hissəsinə çevirir. Bunu da gənclərimiz hiss edir. Mən də 15 yaşımdan gənclər siyasətində, gənclər sektorunda olan bir insan kimi söyləyə bilərəm ki, hələ 2020-ci ilin əvvəllərində vətəndaş cəmiyyəti və qeyri-hökumət təşkilatlarının fəaliyyəti ilə bağlı tam anlaşılan bir fikir formalaşmamışdı. Amma Azərbaycanın dövlət siyasəti böyük bir iş görmüş oldu. Bu fəaliyyət bütün istiqamətlərdədir. Çoxlu sayda sahibkarlarımızın arasında da biz gənclərimizi görürük. Bu proses əslində başlanğıcını 30 il bundan əvvəl götürmüş bir başlanğıcdır. Nə gözəl ki, bunun nəticələrini biz bütün istiqamətlərdə görürük.

***- Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi həyatındakı fəaliyyəti, gördüyü işləri sizi qane edirmi?***

- Tam 100 faiz qane edir demək bir az düzgün olmaz. Azərbaycan gəncliyi bütün potensialını ortaya qoyur ki, bu qaneedici nəticə alınsın. Təbii ki, bunun üçün ən vacib bir məsələ bizim gənclərimizin daha təhsilli olmasıdır. Azərbaycanda yerli təhsilin yüksək səviyyədə olmasına çalışılması çox vacib bir məqamdır. Çünki istənilən cəmiyyətin gələcəyi təhsildir. Necə ki, biz Azərbaycan xalqı bunu sübut etmiş oldu. Görüləcək işlər var, az da deyil. Xüsusilə də gənclərimiz öz üzərində mütləq şəkildə daha çox işləməlidir ki, o tam qaneedici bir səviyyəyə gəlib çatsın. Dövlət maksimum dərəcədə çalışır ki, gənclərin aktivliyi onların istəklərinin icrasında yardımçı olsun. Daha çox məsuliyyət bizim gənclərin üzərinə düşür. Çox vacib məqamdır ki, gənclərlə cəmiyyət və dövlət arasında bu körpü daha da güclənsin.

Ümumiyyətlə gənclər sektorunda fəaliyyət göstərdiyimiz 20 il ərzində onu gördük ki, bir çox işimiz də Avropada gənclərlə bağlı məsələlərdə sırf dövlətin nəzarətini elə də çox hiss etmək olmurdu. Yəni, gənclər sanki özləri özbaşına qalırdılar. Amma Azərbaycanda isə biz dövlətin nəzərini, dəstəyini öz üzərimizdə hiss edirdik. Bu daha çox adama özgüvən verir. Bu təcrübə nəticəsində onu gördük ki, bizim gənclər bundan sonra da daha çox beynəlxalq arenada sayılanseçilən olması üçün bir qədər də öz üzərində işləməsi çox vacibdir.

***- Ümumiyyətlə, Azərbaycan gəncliyinin inkişafı üçün həyata keçirilən layihələrin önəmi barədə nə demək olar?***

- Bu layihələri əslində iki istiqamətdə demək olar. Həm dövlətin bu istiqamətdə apardığı layihələr, həm də ki, vətəndaş cəmiyyətində bizim gənclərin və ümumiyyətlə vətəndaş cəmiyyətində fəaliyyət göstərən təşkilatlarımızın bu istiqamətdə fəaliyyəti. Bizim gənclərin yetişməyi ilk öncə onların ailəsindən gəlir. Daha sonra məktəb və ali təhsil ocaqlarıdır. Amma vətəndaş cəmiyyətinin bu istiqamətdə böyük bir rolu var. Bu danılmazdır. Nəticə də ondan ibarət idi ki, bizdə elə bir ordu formalaşdı ki, onlar canı ilə, qanı ilə bizim torpaqlarımızı geri aldılar.

***- Siz bir ictimai fəal olaraq, gənc olaraq artıq kampaniyalara başlamısınız. Qazilərlə görüşlər keçirirsiniz, onlara mənəvi dəstək göstərirsiniz. Onlarla görüşdə hansı hissləri keçirirsiniz? Təəssüratları nədən ibarətdir? İşğaldan azad olunmuş torpaqlarımızla bağlı hansı fikirləri söyləyirlər?***

- Əslində canını, qanını vermiş şəhidlərimizin ailəsinin, qazilərimizin yanında bizim deyəcək sözümüz elə də çox deyil. Onlar artıq əməli, hərəkəti, gördükləri işlə canları ilə Azərbaycana öz borclarını veriblər. Bizlər də bir Azərbaycan vətəndaşı olaraq, vətəndaş cəmiyyətinin bir nümayəndələri olaraq az da olsa bir töhfə verməyə çalışırıq. Bu təbii ki, maddi məsələlərdən deyil. Çünki dövlətimiz bununla bağlı yetərincə lazımi işləri icra edir. Vətəndaş cəmiyyətinin üzərinə düşən iş təbii ki mənəvi məsələdir. Onlara mənəvi dəstək olmaqdır, onların yanında olmaqdır. Onlar bilsinlər ki, hər dəqiqə, hər saniyə Azərbaycanın adi vətəndaşlarından tutmuş bütün vətəndaşlarımız heç bir zümrəsinə baxmadan onların yanındadır. O ki qaldı onlar özlərini necə hiss edirlər? Mən və bizim komandamız kinolardan gördüklərimizi həmin ailələrin hekayələrində dinləyirik.

***- Azərbaycan həqiqətlərinin təbliğində gənclərimizin üzərinə düşən məsuliyyət nədən ibarətdir? 20 Yanvar, Xocalı soyqırımı kimi qan yaddaşımız olan hadisələri dünya ictimaiyyətinin diqqətinə çatdıra bilirlərmi?***

- Bunun üçün əlindən gələni əsirgəmirlər. Əsirgəyənlər də say etibarilə digərlərindən daha azdır. Amma daha çox aktiv olmaq lazımdır və bu iş Azərbaycanın hüdudlarını mütləq şəkildə aşmalıdır. Xaricdə, dünyanın müxtəlif ölkələrində yaşayan çoxsaylı azərbaycanlılarımız var. Mən başa düşürəm ki, onların təhsillərinə başları qarışıq olur. Bunlar hamısı anlaşılan məsələlərdir. Amma milli məsələlərdə, xüsusilə də Azərbaycanın sırf qüruru ilə bağlı elə məsələlər var ki, orada sinəsini yan çəkmək olmaz. Bunun üçün isə zatən işlər aparılır.

***Ayşən Vəli***

# "Qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı ciddi addımlar atılır"

***Yanvarın 30-da "Rossiya 24" telekanalında TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmanın Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30 illiyinə və Azərbaycan Prezidenti İlham Əliyevin 60 illik yubileyinə həsr olunmuş "Hakimiyyət formulu" verilişi yayımlanıb. Cənab Prezident müsahibəsi zamanı bir sıra iqtisadi məsələlərə də toxunub. Bu məsələlərdən biri də qeyri-neft sektoru ilə bağlı verilən suala cavabda öz əksini tapıb.***



"Cənab Prezidentin qeyd etdiyi kimi qeydi neft sektorunun inkişaf etdirilməsi ilə bağlı ciddi addımlar atılır". Bu sözləri SİA-ya verdiyi açıqlamasında iqtisadçı-ekspert Eldəniz Əmirov deyib.

Ekspert qeyd edib ki, bunun effektivliyi pandemiya səbəbindən son dövrlər azaldı: "Çünki, turist cəlbində ixtisas sahələrinin tənəzzülə uğraması nəticəsində biz bu sahədə müəyyən yavaşmaları müşahidə etdik. Lakin ümumi olaraq ötən illərlə müqayisədə baxsaq qeyri-neft sektorunda artımı görməmək mümkün deyil. İstər qeyri-neft ixracında, istərsə də qeyri-neft sektorunda biz bu artımı ötən illərlə müqayisədə ciddi şəkildə müşahidə edirik. Düşünürəm ki, qarşıdakı perspektivdə də, anti-post pandemiya dövründə də bu artım birmənalı olaraq özünü göstərmiş olacaqdır".

***Rüqəyya Orucova***

# Üçüncü vaksini vurdurmayanlar avtobusa bilet ala biləcəklərmi?

Bakı Beynəlxalq Avtovağzal Kompleksində (BBAK) bilet satışı bu günə qədər Nazirlər Kabinetinin müəyyən etdiyi qaydalara əsasən həyata keçirilir.

SİA-nın məlumatına görə, bunu BBAK-dan bildiriblər. "COVID-19-a qarşı peyvənd olunmanı təsdiqləyən peyvənd sertifikatı və ya COVID-19-dan sağalaraq immunitetə malik olmanı təsdiqləyən sənədi, yaxud COVID-19-a qarşı peyvəndə əks-göstərişi müəyyən edən əks-göstəriş sertifikatı olan şəxslər bilet ala bilərlər. Yəni 3-cü dozasının vaxtı çatmayan,2-ci peyvəndin olunma tarixindən 6 ay keçməyən hər bir vətəndaş bilet ala bilər", - deyə məlumatda qeyd olunub.

Qeyd edək ki, fevralın 15-dən COVID sertifikatlarının etibarlılıq müddəti COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı təsdiqləyən sertifikat üzrə 6 ay, həmin müddət bitdikdən sonra peyvənd istehsalçısının istifadə təlimatında 2 doza vurulması nəzərdə tutulan peyvəndin 1 dozasını aldıqda müddətsiz olacaq. Etibarlılıq müddəti COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən sertifikat üzrə 6 ay, həmin müddət bitdikdən sonra peyvənd istehsalçısının istifadə təlimatında 2 doza vurulması nəzərdə tutulan peyvəndin 1 dozasını aldıqda müddətsiz olacaq. Beləliklə, bununla əlaqədar restoran, mehmanxana və iri ticarət mərkəzlərində qapalı məkanda da yeni tələb qüvvədə olacaq.



## Andrey Koryakovtsev: “Erməni xalqına onilliklər ərzində rusofobik hisslər aşılanıb”




“Məlum oldu ki, dəyişən dünya yeni oyun qaydaları, Qərbə və Rusiyaya münasibətdə yeni ritorika, yeni həll yolları tələb edir. Ermənistan rəhbərliyi sırf praqmatikadan çıxış edərək bunu (ancaq nə dərəcədə ardıcıl olduğu hələ də bəlli deyil) başa düşür. Bu, məcburi bir addımdır. Bununla belə, onun sosial bazası bunu başa düşürmü?”- SİA xəbər verir ki, bu barədə Yeni Cəmiyyət İnstitutunun (RF) eksperti, Ural Dövlət Pedaqoji Universitetinin dosenti Andrey Koryakovtsev Caliber.Az-a şərhində deyib.

Onun sözlərinə görə, onilliklərdir ki, erməni xalqına rusofobik hisslər aşılanıb və onların xeyli hissəsi bundan bir anda əl çəkə bilmir: ”Ermənistan dövləti tərəfindən kütləvi şüurun rasionallaşdırılması üçün xüsusi addımlar tələb olunur. Söhbət ermənilərə rus ağcaqayınlarını və ya Azərbaycan düşpərəsini sevməyi öyrətməkdən getmir, bu, erməni xalqına onların obyektiv maraqlarını dərk etməkdən gedir. Qonşularla dinc yaşamalıdırlar. Bununla belə, bu, hələ çox uzaqdır və kursu dəyişməyi planlaşdıran Ermənistan hakimiyyəti kütləvi dəstəyi itirmək və daha bir komprador ”Maydan” təxribatı yaratmaq riski daşıyır”.

A.Koryakovtsev təklif edib ki, hazırda Ermənistanda baş verən hakimiyyətin restrukturizasiyası dövlət strukturlarında Paşinyan tərəfdarlarının güclənməsi səbəbindən aşağıdan hökumət dəstəyinin ən azı qismən itkisini kompensasiya etmək üçün nəzərdə tutulub.

”Əgər sonuncular ardıcıl olarsa, onlar KTMT-nin dəstəyinə ümid edə biləcəklər ki, bu da erməni müxalifəti üçün keçilməz çətinlikdir. Əgər bu perspektiv doğrudursa, müvəqqəti prezident Alen Simonyanın əvvəlki xarici səfərləri xarici tərəfdaşlar üçün ya uğursuz görünür, ya da bu kursun korreksiyası istiqamətində atılan addımdır”, - deyə A.Koryakovtsev hesab edir.

*Tərcümə - Elçin Bayramlı*

# “Amnesty International” bu dəfə İsraili hədəfə aldı

*"İsrail aparteidi fələstinlilərə qarşı" adlı hesabat qərəzli və şantaj xarakterlidir, üstəlik, erməni lobbisinin izlərini də inkar etmək olmaz!*

AMNESTY INTERNATIONAL




Azərbaycan ictimai-siyasi rəyinə çoxdan tanış olan və əsasən də qərəzləri, çər-böhtanları ilə yadda qalan ”Amnesty International” təşkilatı bu dəfə İsraili hədəfə alıb və buradakı məqsədin heç də xoşməramlı olmaması bəri başdan görünməkdədir. Əsasən də ”İsrail aparteidi fələstinlilərə qarşı” ifadəsi fonundakı ittiham xarakterli hesabat özündə heç bir reallığı, gerçəkliyi, ümumiyyətlə, əks etdirmir.

Yeri gəlmişkən, artıq İsrailin xarici işlər nazirliyi sözügedən hesabatı dırnaqarası adlandırıb və bəyan edib ki, burada ölkənin siyasəti hədəfə alınarkən, ”Amnesty International” özünün açıq-aydın antisemit münasibətini ifşa edib. Yəni, yalnız İrail dövləti və hökuməti deyil, həm də bütövlükdə yəhudi cəmiyyətinə qarşı hücum olunub. ”Hesabat birbaşa ”yəhudi ekspansiyası” ya da ”yəhudilərin demoqrafik hegemoniyası” ifadələri fonunda əks olunur”, deyə XİN-nin bəyanatında vurğulanıb.

Beləliklə, məlum olur ki, sən demə dünya və bəşəriyyət üçün təhlükə mənbəyi məhz İsrail dövlətiymiş (?!). Bu ərəfələrdə o da bəlli olub ki, İsrail sözügedən qərəzli hesabatın hazırlanaraq yayılması üçün müəyyən cəhdlər göstərsə də həmin cəhdlər uğursuz olub. Hətta ABŞ-ın bir sıra yəhudi təşkilatları, diaspora nümayəndələri də ”Amnesty International”ın qərəzinə qarşı hiddətli tənqidlərlə çıxış ediblər. Lakin təəssüf ki, bu məsələ ictimailəşdirildi və belə bir situasiya yarandı. Bu baxımdan, Amerikanın yəhudi cəmiyyətinin qəbul etdikləri birgə bəyanatında da vurğulanır: ”Hesabat əsassız obrazda bir hədəf üzərində fokslaşır: yəhudilərin İsrail dövlətini və onun demokratikliyini legitimsizləşdirmək və bədheybətli göstərmək”.

### İsrailin XİN başçısı Yair Lapid: ”Amnesty International” növbəti radikal kontora dönüb”

”İsrail insanlığa qarşı cinayətlərdə” adlı sənəd isə nə az, nə çox, düz 211 səhifəlikdir, üstəlik, fələstinlilər haqqında qeyd olunub ki, onlar ”işğalla mübarizə aparırlar”, lakin fələstinli administariyanın silahlı qruplaşmalarının İsrail vətəndaşlarına qarşı hücumları barədə bir kəlmə də olsun deyilmir.

Digər mövqeyə nəzər salaq - ”Qayıdış haqqında qanun” irqçi adlandırılıb, beynəlxalq ictimaiyyətə isə tövsiyə edilib ki, sözügedən hesabat kontekstində bir sıra ölkələr İsrailə silah gndərməməli, buna embarqo qoyulmalıdır, habelə yüksək rütbəli siyasətçilər və həbrçilər hərbi cinayətlərinə görə məhkəmələrə cəlb edilməlidirlər. Bu məsələyə münasibətində İsrailin xarici işlər naziri Yair Lapid belə yazıb: ”Ötənlərdə ”Amnesty International” normal təşkilat idi və biz ona hörmət bəsləyirdik. Bu gün isə o növbəti radikal kontora dönüb və heç bir yoxlamalar, araşdırmalar etmədən yalnız feyklər yaymaqla məşğuldur. Cəmi beş dəqiqəlik araşdırma aparmaq kifayət edər ki, hesabatda təqdim edilən faktların reallıqla heç bir əlaqəsinin olmadığını müəyyən edəsən. İsraiç ideal deyil, lakin bu ölkə beynəlxalq hüquqlara əsaslanan, eləcə də özünün azad sözü, KİV-ləri, Ali məhkəməsi ilə demokratik dəyərlərin daşıyıcısıdır. ”Amnesty International” Suriyanı ”aparteid dövlət” adlandırmır, halbuki bu ölkənin hakimiyyəti yarım milyon vətəndaşını qətlə yetirib. Nə İran, nə Afrikanın və Latın Amerikasının qaniçən ölkələri də belə dalandırılmayıblar. Yalnız İsrail. Mən, belə bir arqumentə dözümsüzlük nümayiş etdirirəm ki, İsrail yəhudi dövləti olmasın, görünür, ”Amnesty International” da bunu istəyir və belə olarsa daha heç kim İsraili tənqid hədəfinə almayacaqmış...”.

### Fələstinli hüquq müdafiəçisi Basem Eyd ”Amnesty International”ın qərəzli hesabatını ifşa edib

Beləliklə, sözügedən hesabatdan o da aydın görünür ki, ”Amnesty International” aldığı sifarişinə əsasən gündəmə ”İsrail aparteidi” mövzusunu gətirməyə çalışır. Və maraqlıdır ki, həmin hesabat Beynəlxalq Holokost günündən cəmi dörd gün sonra yayılıb. Maraqlıdır ki, hesabatda Holokost barəsində heç bir söz deyilməyib.

Bu arada onu da xatırlatmaq olar ki, ”Amnesty International”ın qərəzli hesabatına hətta Fələstindən olan tanınmış simalar da etiraz səslərini ucaldıblar. Fələstinin nüfuzlu hüquq müdafiəçisi, Yerusəlim-Fələstin qrupunun təsisçisi Basem Eyd videomüraciət edərək ”Amnesty International”ın hesabatına sərt münasibətini açıqlayıb, qərəzini ifşa edib.

### İkinci Qarabağ müharibəsində ABŞ İsrailin Azərbaycana silah satmasını niyə əngəlləməyə çalışıb?

Yeri gəlmişkən, zaman-zaman ”Amnesty International” Azərbaycanı da qəzərli, hətta izafi dərəcədə şantajlı hesabatları ilə hədəfə alır. Və maraqlıdır ki, bu gün İsraili hədəfə alan adıçəkilən təşkilat çox yəqin ki, əlində daha bir qərəzli ”əsasını” bayraq kimi yelləyir. Misal üçün, İkinci Qarabağ müharibəsində ABŞ-ın yüksək siyasi dairələri İsrailə müraciət edərək, Bakıya silah satışını dayandırmağı istəmişdi. Lakin İsrail ABŞ-a rədd cavabını verməmişdi. Bu barədə Amerikanın siyasi analitiki Maykl Doran ADA universitetinin ingilis dilli ”Bakı dialoqları” jurnalındakı məqaləsində məlumat verib.

### Amerikalı siyasət adamı Maykl Doran: ”Müttəfiqlər müharibənin qızğın vaxtında bir-birinə atəş açmırlar”

”Baxmayaraq ki, Vaşinqton müharibənin ilin mərhələlərində tam olaraq proseslərə daxil olmamışdı, bu mövqe onun dostları arasında anlaşılmazlıq yaratmışdı”, deyə Maykl Doran qeyd edib. Onun sözlərinə görə, müharibə haqqında məlumatlı olan İsrail hökumətinin yüksək rütbəli məmuru ona deyib ki, hərbi əməliyyatlar gedərkən ona Ağ evin yüksək rütbəli məmuru zəng edib və israillilərin Azərbaycan ordusunu təchiz etməməsini xahiş edib. İsrail məmuru isə ona mədəni şəkildə rədd cavabı verib və amerikalıya izah edib ki, ”müttəfiqlər müharibənin qızğın vaxtında bir-birinə atəş açmırlar”. Ağ evin nümayəndəsi bir daha həmin məsələni qaldırmadı.

Qeyd edək ki, Doran Qudzonnun Yaxın Şərqdə təhlükəsizlik və sülh institutunun elmi əməkdaşıdır. O, ABŞ-ın milli təhlükəsizlik şurasında çalışıb, həmçinin ABŞ Dövlət departamentinin baş məsləhətçisi kimi fəaliyyət göstərib.

Maykl Doran ABŞ-ın milli təhlükəsizliyi şurasında dövlət katibinin ictimai diplomatiya məsələləri üzrə müavini kimi də çalışıb, eyni zamanda kiçik Corc Buşun prezidentliyi dövründə müdafiə nazirliyində fəaliyyət göstərib. Doran İsrailə dəstək göstərən əsas şəxslərdən biri kimi seçilir, o cümlədən, ABŞ-ın Türkiyə və Azərbaycanla əməkdaşlığının tərəfdarı qismində çıxışları ilə seçilir. Qarabağ müharibəsində isə birmənalı olaraq Azərbaycanın mövqeyini müdafiə edib.

### ”Amnesty International”ın İsraili hədəfə almasının pərdəarxası məqamı - erməni lobbisinin barmağı...

Bütün bu kimi məsələlərdən belə bir nəticə hasil etmək olar ki, güclənməkdə, regional söz sahibinə çevrilməkdə olan bir sıra ölkələr dərhal ”Amnesty International” kimi təşkilatların hədəflərinə tuş gəlirlər və son anda belə təşkilatların pərdəarxası məqamları da ifşa olunur, onların kirli sifarişlər əsasında fəaliyyətləri üzə çıxır. Hətta sözügeəən məsələni daha dərində araşdırarsaq, İsrailin hədəfə alınmasında erməni lobbisinin də izlərini aşkar etmək olar. Əbəs deyil ki, İsrailin dünyadakı lobbi təşkilatlarına meydan oxuyan diasporalardan biri də məhz erməni cəmiyyətləridir. Biz onu da unutmamalıyıq ki, İkinci Qarabağ müharibəsi dövründə Ermənistanın paytaxtı İrəvanda Holokost qurbanlarının xatirəsinə ucaldılmış memorial kompeks iki dəfədə (!) təhqirə məruz qalmışdı və buradan da görünür ki, əslində, dözümsüzlük, aparteid tipli məsələləri elə Ermənistanın özünə də aid etmək olar. Həmin vaxtlar bütün dünya üzrə İsrailin Azərbaycanla dostluq və əməkdaşlıq münasibətləri hədəfə alınırdı, onların arxasından isə bilavasitə erməni təşkilatları, erməni lobbiləri çıxırdı. Çox yəqin ki, ”Amnesty International”ın qərəzli, şantaj xarakterli hesabatının bu hesabatının da arxasından məhz erməni barmağının çıxacağını indidən proqnoz etmək olar...

**Rövşən RƏSULOV**

# Ukrayna ilə əməkdaşlıq daha uğurlu perspektivlər vəd edir



**Şakir HƏSƏNOV,**
**“AzTermoizol” ASC-nin sədri,**
**“Əmək” ordenli, ”Tərəqqi” medallı,**
**“Sokrat” beynəlxalq mükafatı laureatı**

***Prezident İlham Əliyevin yanvarın 14-də Azərbaycanın strateji tərəfdaşı olan Ukraynaya işgüzar səfəri inanıram ki, münasibətlərimizin sürətli inkişafına təkan verəcək. Bundan sonra iki ölkənin əlaqələri keyfiyyətcə yeni mərhələyə qədəm qoyacaq.***

Bildiyimiz kimi Azərbaycan və Ukrayna xalqları arasında ənənəvi dostluq münasibətləri uzaq tarixə söykənir. Uzun illər Sovet İttifaqının tərkibində olan respublikalarımız həmin dövrdə də sıx əlaqələrə malik olublar. Müstəqilliyin bərpasından sonra həm Azərbaycan, həm də Ukrayna üçün strateji maraqlara cavab verən qarşılıqlı faydalı əməkdaşlıq üçün yeni imkanlar açılıb.

Xalqlarımız arasında əlaqələrin böyük tarixi var və biz bu əlaqələri qoruyuruq. İllərdir ki, Kiyevin mərkəzində ulu öndər Heydər Əliyevin möhtəşəm abidəsi ucalır. Bakıda isə Ukraynanın böyük oğlu Taras Şevçenkonun heykəli qoyulub. Eyni zamanda, ən böyük meydanların biri Ukrayna adını daşıyır. Heydər Əliyev Fondunun dəstəyi ilə Kiyevdə, Taras Şevçenko adına Kiyev Milli Universitetinin Nəbatat Bağında Nizami Gəncəvinin abidəsinin ucaldılmasına dair Anlaşma Memorandumu imzalanıb. Ötən sentyabr ayında isə Xarkovda mütəfəkkir şairimizin abidəsi qoyulub.

Azərbaycan Prezidentinin 2008-ci ilin may ayında Ukraynaya səfəri çərçivəsindən ”Azərbaycan Respublikası və Ukrayna arasında dostluq və strateji tərəfdaşlıq haqqında bəyannamə” imzalanmış və həmin sənəd gələcək əməkdaşlıq istiqamətlərində əhəmiyyətli rol oynamışdır. Ümumilikdə iki ölkə arasında münasibətlərin hüquqi bazasını formalaşdıran 155 sənəd imzalanmışdır. Ukrayna hər zaman Azərbaycanın yanında olub. Biz bunu Azərbaycanın 44 günlük Vətən müharibəsində də gördük. Ukrayna dövləti daim Azərbaycanın haqlı mübarizəsini dəstəklədi, Ukrayna mətbuatı müharibə haqqında obyektiv məlumatlar yaydı.

Sənaye mərkəzi Sumqayıtla Ukrayna şəhərlərinin əlaqələri daim sıx olub. Çerkassı Sumqayıtla qardaşlaşmış şəhərlərdən biridir. Bizim gənclik şəhərində Çerkassının, orada isə Sumqayıtın adını daşıyan küçələr var. Rəhbərlik etdiyim və Sumqayıt şəhərində yerləşən ”AzTERMOİZOL” ASC-nin də Ukrayna ilə əlaqələri var. Məlum Donbas münaqişəsindən əvvəl Donetsk şəhərindən dəfələrlə sifarişlər almışıq və sənaye obyektlərində mürəkkəb istilik-izolyasiya quraşdırma işlərinin öhdəsindən layiqincə gəlmişik.Digər mühüm layihələrdə fəal iştirak etmişik. Eyni zamanda Mariupol şəhəri sinkalüminium materialları üzrə bizim əsas təchizatçımız olub. Fəxr edirik ki, bu əməkdaşlığımızla xalqlarımızın dostluq tellərinin daha da möhkəmləndirilməsinə töhfələr vermişik...

Cənab İlham Əliyevin yeni ildə ilk olaraq məhz Kiyevə xarici səfərə yollanması dövlət başçımızın diplomatik cəsarət və qətiyyətinin nümunəsidir. Məsələ burasındadır ki, 30 ilə qədər torpaqlarının 20 faizi işğal altında olmuş ölkəmizin rəhbəri Vətən müharibəsində möhtəşəm Qələbədən sonra Krım və Donbasla bağlı ərazi problemi olan Ukraynaya səfəri ilə həm də bu ölkəyə həmrəyliyini nümayiş etdirmiş oldu. Bu səfər eyni zamanda dost Ukrayna xalqı üçün Azərbaycanın geopolitik məsələlərdə təcrübəsindən yararlanmaq və sabit, müstəqil inkişafa nail olmaq baxımından əhəmiyyətli idi.

Səfər zamanı ölkələrimizin qarşılıqlı faydalı əməkdaşlığının daha da genişləndirilməsi nəzərdən keçirilib. Prezidentlər İlham Əliyev və Volodimir Zelenski bu yöndə bir sıra sahələri əhatə edən sənədlər imzalandıqdan sonra mətbuat üçün bəyanatlarında qeyd ediblər ki, tərəfdaşlığın geniş aspektləri və perspektivləri var. Həmin gün kənd təsərrüfatı, nəqliyyat, energetika, ticarət sahələrində əlaqələri daha da intensivləşdirmək barədə altı mühüm sənəd qəbul edilib.

Əldə olunan razılıqlar Azərbaycana özünün ərzaq təhlükəsizliyini daha da artırmaq imkanı verəcək. Bu isə dövlətimizin qarşısında duran prioritet məsələlərdəndir. Prezident İlham Əliyev Kiyevə səfərindən iki gün öncə yerli telekanallara verdiyi müsahibəsində də bu məsələ üzərində ətraflı dayanıb və ölkəmizdə ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafı ilə bağlı davamlı addımların atıldığını vurğulayıb. Səfər zamanı aqrar sahədə emal və eksportla bağlı birgə fəaliyyətin əsası qoyulub.

Ukrayna üçün isə enerji təchizatı üzrə əlaqələrin genişləndirilməsi xüsusi önəm daşıyır. SOCAR-ın dost ölkədə öz fəaliyyətini genişləndirmək əzmi Ukraynada hərtərəfli dəstəklənir.

Onu da vurğulamaq istəyirik ki, Azərbaycanın Ukraynadakı diaspor təşkilatı da çox yaxşı işləyir və orada yaşayan azərbaycanlıları həmişə dəstəkləyir. Azərbaycanlılarla, ukraynalıların arasında həmişə dostluq əlaqələrinin inkişafına köməklik edir.

# Prezident olmağa ümidli erməni müxalifəti...

***...Bu gün Ermənistanda savadlı təbəqəsinin təqribən 95 faizi Nikolun getməsini istəyir. Əslində bu 95 faizlik qüvvənin guya hansısa fiqurun hakimiyyətə gəlməsinin tərəfdarı kimi qəbul etmək də düzgün olmaz. Amma buna baxmayaraq, adıçəkilən qüvvələr çox açıq şəkildə mövcud hakimiyyəti rədd edirlər.***



*Vaxtilə Nikolu elə də ağılsız saymayanlar indi Nikola qarşı ayağa qalxırlar?*

Qeyd edək ki, bu gün aparılan bəzi erməni sorğularına görə, Nikola 25, digər versiyalara görə 20 və hətta 17 faiz səs verənlərin olacağı ehtimal edilir. Ancaq etiraf edilməlidir ki, bu da elə bir böyük əhəmiyyət kəsb etmir. Məsələ bundadır ki, hazırda guya Nikol cəmiyyətin yalnız kiçik bir hissəsinin dəstəyinə sahib olub və yəqin ki, bundan sonra da olacaq. Əslində isə bütün bunlara baxmayaraq, sən demə, Paşinyanın hazırda ölkətə artıq heç bir sabit sosial dayağı yoxmuş(?).

...Nə gözəl! Doğrudan da, Ermənistanda keçiriləcək prezident seçkiləri ərəfəsində həm Robert Koçaryan, həm də elə Serjik Sarkisyanın əlinə yenidən erməni hakimiyyətinə qayıtmaq üçün əla fürsət düşüb. Məgər bu şansdan yararlanmaq olmazmı?

Bəs, görəsən onda, Ermənistanda özünü ”əsil ana müxalifət” kimi təqdim edib xeyli tərəfdaşı olduğunu iddia edən ”Hayastan” fraksiyası, onun rəhbəri Robert Koçaryan niyə ölkədə keçiriləcək prezident seçkilərində iştirak etmək istəmir? Bir halda ki, bu gün Nikol Ermənistanda heç 17 faizlik də ”nüfuz sahibi” deyilsə, deməli, Robert Koçaryan və onun tərəfdarları bundan yaxşıca yararlana bilərlər. Amma, məsələ bundadır ki, həm Robert, həm də Serjik bu gün Ermənistanda özlərinin hansı ”nüfuz” sahibi olduğunu yaxşı bilirlər.

Maraqlıdır ki, bir müddət bundan əvvəl ekstrasens kimi çıxış edən Robert Koçaryan Ermənistanda keçiriləcək seçkilərin legitimləşdirilməsində iştirak etməyi qəbuledilməz və yanlış hesab etmişdi. Buna görə də, o rəhbərlik etdiyi blokun prezident seçkilərində iştirak etməmək qərarına gəldiyini bəyan etmişdi. Ən maraqlısı isə Koçaryan beynəlxalq ictimaiyyətin demokratiyanın tənəzzülü ilə bağlı aşkar faktlara, o cümlədən tək adam diktaturasının formalaşmasına susduğuna ”üsyan” etdiyini cəmiyyətə çatdırmağa çalışıb, milli birlik və ictimai həmrəylikdən dəm vurmuşdu...

Yeri gəlmişkən bildirək ki, Robertin tərəddüdlərinə rəğmən, parlament müxalifəti Ermənistan prezidentliyinə öz namizədini artıq müəyyən edib. Deyilənə görə, bu Ermənistan Konstitusiya Məhkəməsi aparatının keçmiş rəhbəri və sonradan ermənilərin Polşadakı səfiri olmuş Edqar Qazaryandır. O da deyilir ki, artıq ”Hayastan” və ”Mənim şərəfim var” fraksiyalarının nümayəndələri Qazaryana ”dəstək” nümayiş etdiriblər. Bu gün prezidentliyə namizədin irəli sürülməsini müxalifət üçün böyük şans hesab edən Edqar Qazaryanın özü isə ”bunu əldən vermək olmaz” - deyə bildirib.

Daha maraqlı bir məqam. ...Nə bilmək olar, bəlkə 2018-ci ildə Paşinyana dəstək olan erməni xalqı, bu dəfə müxalifətin ətrafında toplanaraq Qazaryanın ardınca gedəcək? Bundan əlavə, hələ kifayət qədər uzaqda olan səsvermə zamanı hakim partiyadan olan deputatların müxalif namizədə üstünlük verəcəyini də istisna etmək olmaz. Qeyd edək ki, hazırda Qazaryan və himayədarları buna da ümidlidirlər.

Bir sözlə, onlara görə bu, Nikolu yola salmaq, ondan qurtulmaq üçün yaxşı şansdır və bundan mütləq istifadə edilməlidir.

...Belə ki, hazırda Qazaryan öz saymağında olsun,.. amma görək Nikol Paşinyan nə sayacaq. Onu da xatırladım ki, indi baş nazirə qarşı gedənlər, elə də uzaq olmayan keçmişdə Nikolun ”ağılsızın biri” olmadığını etiraf edənlərdir.

***Ağasəf Babayev***

***Mixail Sadovnikov: "2 dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun şücaətləri məktəblərdən birinə onun adının verilməsi prosesinin başlanmasına səbəb oldu" Moskvadakı azərbaycanlıların milli-mədəni muxtariyyətinin nümayəndələri 2 dəfə Sovet İttifaqı Qəhrəmanı, Tank Qüvvələrinin Qvardiya generalı Həzi Aslanovun anadan olmasının 112-ci ildönümünə həsr olunmuş tədbir keçirib. "Moskva-Bakı" portalı həmin tədbirdən reportaj hazırlayıb. Reportajı oxucularımızın diqqətinə təqdim edirik.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi" istiqaməti çərçivəsində hazırlanıb.*



# General Həzi Aslanovun şücaətləri Rusiyada necə şərəfləndirildi?







Həzi Aslanovun tank briqadasının döyüşlərinin yenidən qurulmuş salnaməsi vəfat etmiş müharibə qəhrəmanlarına nəzər salmağa imkan verir. Bu gün əfsanəvi Sovet generalının xatirəsi Moskva vilayətindəki Podolsk məktəbinin şagirdləri tərəfindən diqqətlə qorunur. Onlar Moskvanın Azərbaycan diasporu ilə birlikdə məktəb muzeyində 2 dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun qəhrəmanlıq taleyinə həsr olunmuş geniş ekspozisiyanı təntənəli şəkildə açmışlar.

”Bu, Moskvada keçirdiyimiz 4-cü tədbirdir. Həzi Aslanov görkəmli komandir idi. Bu barədə uzun müddət danışmaq olar. Stalinqrad yaxınlığında şiddətli döyüşlərdə iştirak edib, Belarusun azad edilməsində iştirak edib. Məhz o zaman o, ali baş komandandan 6 dəfə təşəkkür alıb. O, başqa şəhərlərin də azad edilməsində iştirak edib”,- deyə Moskva azərbaycanlılarının milli-mədəni muxtariyyətinin sədri Əli Kazımov bizimlə söhbətində bildirib.

Həzi Aslanovun şücaətlərindən, komandirlik istedadından təkcə Azərbaycandan gələnlər danışmayıb. Tverdən Mixail Sadovnikov muzeyin açılışına bir səbəblə gəlmişdi. O, bu yaxınlarda qırıcı pilot Aleksey Maresyevə həsr olunmuş ”Əfsanəvi Maresyev” kitabını buraxıb. Həzi Aslanovun şücaətləri müəllifi yeni vətənpərvərlik ideyalarına ruhlandırmışdır.

”Bu komandir haqqında ilk dəfə 3 il əvvəl dostum Əli Kazımovdan öyrəndim. O, mənə dedi ki, o, Azərbaycanın şanlı oğlu, 2 dəfə Sovet İttifaqı Qəhrəmanıdır. Və biz bu əhvalatı daha da geniş öyrənməyə başlayanda məlum oldu ki, 1942-1943-cü ilin ağır illərində Həzi Aslanovun komandirlik etdiyi alay Qərb cəbhəsindən Moskva yaxınlığına köçürülüb və bir müddət orada dayanıblar- Boloqoe yaxınlığında. Həzi Aslanov isə alayın yerləşdiyi qəsəbələrimizin birində zabit klubu tikdirməsi ilə fərqlənirdi. Bütün bunlar və qəhrəman Həzi Aslanovun şücaətləri məktəblərdən birinə onun adının verilməsi prosesinin başlanmasına səbəb oldu. İndi biz bu işi görürük. Kitabımda bizim Sovet xalqının, Rus xalqının çoxmillətliliyi haqqında giriş hissəsi var. Müəlliflərdən biri düzgün yazıb ki, müxtəlif millətlərdən olan əsgərlərimiz eyni Sovet cəsarətinə malik olublar”,- ”Yuxarı Volqa bölgəsinin dirçəlişi” adlı Tver regional ictimai təşkilatının qəyyumlar şurasının sədri Mixail Sadovnikov bildirdi.

Tədbirdə məktəblilər iştirak edib, gecənin qonaqlarına qəhrəman tankçı, general-mayor Həzi Aslanov haqqında dərsliklərdən öyrənə biləcəkləri hər şeyi danışıblar. İkinci Dünya Müharibəsi veteranı Mariya Mixaylovna Roxlina onların hekayəsini tamamladı. Onu Həzi Aslanovla Stalinqrad döyüşü birləşdirir.

Aslanovun briqadası Volqoqradda bu gün onun abidəsinin yerləşdiyi məktəbi bərpa edib. Həzi Aslanovun nəsli Bakıda yaşayır, onlar da məktəbdə təşkil olunmuş Moskva-Bakı telekörpüsü vasitəsilə minnətdarlıq sözlərini çatdırıblar. Videobağlantı sayəsində Belarusdakı Azərbaycan diasporunun nümayəndələri və Bakı veteranları da tədbirə qoşulublar. Tədbir beynəlxalq xarakter daşıyırdı. Tədbirin sonunda muzeyə Böyük Vətən Müharibəsi qəhrəmanları haqqında çoxlu kitablar və materiallar paylanmışdır. İştirakçılar bu günün xatirəsinə xatirə şəkli də çəkdirib, növbəti Qələbə Gününü Həzi Aslanovun vətənində Bakıda birgə qeyd etməyə razılaşıblar.

***Tatyana Novikova***
***Din Bitsoyev***
***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ

SƏS

5 fevral
2022-ci il

# Ronaldonun formada qalmasının sirri açıldı!



***"Mançester Yunayted"in portuqaliyalı futbolçusu Kriştiano Ronaldonun əla formada qalmasının sirri məlum olub. Qol.az "The Sun"a istinadən xəbər verir ki, 36 yaşlı hücumçunun evində fərdi kriyoterapi palatası var. O, bunun sayəsində yüksək fiziki formasını saxlayır. Palatanın 60 min avro dəyərində olduğu bildirilib.***

Kriyoterapi toxumaların bərpasına və sağalmasına kömək edən, - 200 dərəcə selsiyə çata bilən bir kameradır. Bu stenddə idmançılar maksimum beş dəqiqə vaxt keçirə bilərlər.


## «SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR



1 .Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN


# Semih Kaya yenidən "Qalatasaray"da



***Tarixində ən ağır çempionat dövrünü yaşayan İstanbulun "Qalatasaray" futbol klubu heyətinə yeni oyunçu cəlb edib. Bu barədə İstanbul klubunun rəsmi saytı məlumat yayıb. İstanbul təmsilçisi "Malatyaspor"la sözləşməsini ləğv edən sabiq futbolçusu Semih Kaya ilə mövsümün sonuna qədər müqavilə imzalayıb.***

Qeyd edək ki, Türkiyə millisinin sabiq üzvü "Qalatasaray"ın yetirməsidir. 30 yaşlı müdafiəçi "Sparta" (Praqa), "Qaziantepspor", "Kartalspor"da da oynayıb.

# Onkoloji xəstələr COVID-19 vaksini vurdura bilər?



Yaxın zamanlarda əməliyyat keçirən, yaxud əməliyyatdan sonrakı dövrdə olan onkoloji xəstələr vaksin oluna bilməz. SİA xəbər verir ki bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, onkoloq Azad Kərimli deyib. O qeyd edib ki, yaşından, maddi durumundan və cəmiyyətdəki mövqeyindən asılı olmayaraq onkoloqun görüşünə gələn hər kəs həkimdən dəhşətli bir xərçəng diaqnozu eşitməkdən ən çox qorxur, ancaq onkologiyadan da təhlükəli xəstəliklər var.

"Bütün dünyada hazırda koronavirus tüğyan edir, o cümlədən də bizim respublikamızda. Hazırda bütün dünya peyvənd olunur. Ölkəmizdə aparılan vaksinasiya prosesi dünyada aparılan uğurlu vaksinasiya kampaniyalarından biridir. Təəssüf ki, bəzən sosial şəbəkələrdə "ekspertlər"in səsləndirdiyi əsassız fikirlər insanları çaşdırır. Hesab edirəm ki, vətəndaşlar rəsmi səhiyyə qurumlarının təmsil edən ekspertlərinin tövsiyələrinə əməl etməlidirlər. Sürətlə yayılan virusdan qurtulmaq istəyiriksə, vaksinasiya prosesində aktiv iştirak etməliyik.

O ki qaldı onkoloji xəstələrin peyvəndləməsi ilə bağlı suala, bildirmək istəyirəm ki, yaxın zamanlarda əməliyyat keçirən, yaxud əməliyyatdan sonrakı dövrdə olan onkoloji xəstələr vaksin oluna bilməz. Həmçinin kimyaterapiya müalicəsi alan, ya da hal-hazırda şüa terapiyası şöbəsində müalicə olunan onkoloji xəstələrə vaksin tövsiyə olunmur. Müalicə bitdikdən sonra onlar da peyvənd oluna bilərlər. O cümlədən də pasient uzun müddətdir onkoloji xəstə kimi qeydiyyatdadır, niyə peyvənd olunmasın? Hesab edirəm ki, mütləq COVID-19-a qarşı peyvəndlənməlidir", - deyə o bildirib.

# Qoyun əti: xeyri də var, ziyanı da...

Azərbaycanda qoyun əti digər ölkələrlə müqayisədə daha çox istehlak olunur. Onun xarakterik xüsusiyyətlərindən biri də tərkibindəki kreatinin metobolizmi ilə əlaqədar spesifik dad və qoxuya malik olmasıdır.

Həkim-diyetoloq Ləman Süleymanova AZƏRTAC-a deyib: "Qoyun ətinin tərkibi heyvanın cinsi, yaşı, cinsiyyəti, qidalanması, bəslənməsi, həmçinin stres amilləri ilə əlaqədar olaraq dəyişir. Qida əhəmiyyətinə görə quzu əti daha keyfiyyətli və diyetik sayılır. Qoyun ətinin enerji dəyəri 100 qramda 190-300 kkal intervalında dəyişir. Kimyəvi tərkibinə görə qoyun əti zülallar, yağlar, ekstraktiv və mineral maddələr, fermentlər, vitaminlər, karbohidratlar, su və digər qida maddələrindən təşkil olunub".

Onun dediyinə görə, tərkibində zülal və lestinin çox olması ilə yanaşı, karbohidrat və xolesterolun azlığına görə yağsız qoyun əti orqanizm tərəfindən asan mənimsənilir və diabet xəstələri üçün faydalıdır: "Dəmir elementi və B12 vitamini ilə zəngin olduğuna görə dəmir defisitli anemiya zamanı istehlakı xüsusən tövsiyə olunur. Tərkibində olan B qrup vitaminləri isə mərkəzi-sinir sisteminin funksiyasını tənzimləyir. Ətin tərkibində zərərli xolesterolun miqdarının az olması həm də ürək-damar sisteminin fəaliyyətini nizamlayır və aterosklerozun qarşısını alır. Bu növ ətin istehlakı hamiləlik dövründə dölün inkişafına müsbət təsir edir, çünki qoyun ətinin tərkibi fol turşusu ilə zəngindir. Mütəmadi istehlak olunan qoyun əti müxtəlif biokimyəvi prosesləri sürətləndirməklə orqanizmin müdafiə sistemini səfərbər edir".



Qoyun ətinin faydalı xüsusiyyətləri ilə yanaşı, zərərli təsirləri də var. Yağlı qoyun ətində doymuş yağ turşuları çox olduğundan hipertoniya və mədə-bağırsaq xəstəlikləri zamanı istehlak məsləhət görülmür. Ətin tərkibində çox olan purin əsaslarının sidik turşusuna çevrilməsi səbəbindən oynaq, böyrək və öd kisəsi disfunksiyasından əziyyət çəkənlər üçün də istehlakı zərərlidir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4600